QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim
üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 193 (5424) 24 **oktyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycanın beynəlxalq aləmdə nüfuzu get-gedə artır

*Prezident İlham Əliyevin xüsusi qonaq kimi İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) IX Zirvə görüşündə iştirak etməsi bunu bir daha sübut edir*




Səh 2

**Novruz Məmmədov: "AŞ-dan çıxmaq məsələsinə Azərbaycan özü qərar verə bilər"**



3

**Hökumət hərbi qulluqçularla bağlı qaydanı dəyişdi**



5

**Orelia Buşez: Gələn il Fransada "Naxçıvanın arxeoloji xəzinəsi" adlı sərgi təşkil ediləcək**



5

**Buxara şəhəri ilə tanışlıq azərbaycanlı qonaqlarda xoş təəssüratlar yaradıb**



3

**Bakı Şopinq Festivalı paytaxtımızı xarici turistlərə daha cəlbedici edib**

11

**TRT HABER erməni terrorizminin dəhşətli nəticələri ilə bağlı veriliş yayımlayıb**



11

7

**Ermənistanın təxribatı nəticəsində şəhid olan hərbi qulluqçumuz torpağa tapşırılıb**



3

**İtaliya mətbuatı Azərbaycan-İtaliya münasibətlərinə dair konfransı geniş işıqlandırıb**




16

**Dünya birinciliyində tarix yazan gənc cüdoçularımız Vətənə qayıdıblar**



# Azərbaycanın beynəlxalq aləmdə nüfuzu get-gedə artır

*Prezident İlham Əliyevin xüsusi qonaq kimi İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) IX Zirvə görüşündə iştirak etməsi bunu bir daha sübut edir*

***Azərbaycanın beynəlxalq aləmdə nüfuzu get-gedə artır. Bunu dövlətimizin əhəmiyyətli beynəlxalq tədbirlərdə iştirakı bir daha sübut edir. Elə Azərbaycanın Türkiyənin İstanbul şəhərində səkkiz ölkənin (Türkiyə, İran, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, Misir və Nigeriya) İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi altında keçirilmiş IX Zirvə görüşündə təmsil olunması da ölkəmizin müsəlman dünyasında nüfuzundan irəli gəlir. Azərbaycan Prezidenti İlham Əliyev xüsusi qonaq kimi toplantıya dəvət olunmuşdu. Bu, Azərbaycan-Türkiyə dostluq və qardaşlığına nümunə olmaqla yanaşı, dövlətimizin müsəlman dünyasında rolunun artdığını göstərir.***




Məlumat üçün qeyd edək ki, D-8-in yaradılması ideyası İslam Əməkdaşlıq Təşkilatının 1996-cı il oktyabrın 22-də İstanbulda keçirilmiş toplantısında irəli sürülüb. Bir il sonra 1997-ci il iyunun 15-də İƏT-in dövlət və hökumət başçılarının İstanbulda keçirilmiş sammitində D-8 rəsmən təsis edilib. Məqsəd üzv-ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək, iqtisadi və sosial sahələrdə əlaqələri genişləndirməkdir.

Budəfəki Zirvə görüşünün gedişində D-8-in 20 illik fəaliyyəti müzakirə olundu, qarşıdakı mərhələ üçün məqsədlər müəyyənləşdirildi. Qurumun IX Zirvə görüşündə onun gələcək inkişafının istiqamətləri müzakirə mövzusu oldu. Qeyd edildi ki, qarşıda duran vəzifələrdən biri gənc və dinamik artan əhaliyə, zəngin təbii sərvətlərə, sürətli inkişafa malik D-8 ölkələrinin potensialından səmərəli istifadə olunması nəticəsində qarşılıqlı ticarət dövriyyəsini hazırkı 100 milyard dollardan 500 milyard dollara çatdırmaqdır. Təbii ki, bu məqsədə çatmaq üçün, ilk növbədə, D-8 üzvlərinin sayının artırılması vacibdir. Odur ki, Azərbaycan dövlətinin başçısının IX Zirvə görüşünə dəvət olunması təsadüfi deyil.

Əlbəttə ki, Azərbaycan D-8 çərçivəsində beynəlxalq əməkdaşlığın inkişafına əhəmiyyətli töhfə verə bilər. Çünki Azərbaycan dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparan və islam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində konkret addımlar atan ölkə kimi tanınır. Digər tərəfdən, milli müstəqilliyini cəmi 26 il əvvəl bərpa etmiş Azərbaycan qısa müddət ərzində uğurlu inkişaf yolu keçib. Prezident İlham Əliyevin D-8-in Zirvə görüşündə qeyd etdiyi kimi, 2004-cü ildən bəri milli iqtisadiyyatımız üç dəfədən çox artıb, 2 milyona yaxın iş yeri açılıb. Yoxsulluq 5 faizə düşüb. Savadlılıq 100 faizə yaxındır. Valyuta ehtiyatlarımız ölkənin ümumi daxili məhsuluna bərabərdir. Xarici dövlət borcu ümumi daxili məhsulun 20 faizindən azdır. Azərbaycanın bu uğurları beynəlxalq təşkilatlar tərəfindən də qeyd olunur. Davos İqtisadi Forumunun iqtisadiyyatın rəqabətqabiliyyətliliyi üzrə builki hesabatında Azərbaycan 35-ci yeri tutub: "İki gün əvvəl Azərbaycan müstəqilliyinin bərpasının 26-cı ildönümünü qeyd edib. Qısa müddət ərzində ölkəmiz uğurlu inkişaf yolu keçmişdir. 2004-cü ildən başlayaraq, iqtisadiyyatımız 3 dəfədən çox artmış, 2 milyona yaxın iş yeri açılmışdır. Yoxsulluq 5 faizə düşmüşdür. Savadlılıq 100 faizə yaxındır. Valyuta ehtiyatlarımız ölkənin ümumi daxili məhsuluna bərabərdir. Xarici dövlət borcu ümumi daxili məhsulun 20 faizindən azdır. Azərbaycanın bu uğurları beynəlxalq təşkilatlar tərəfindən də qeyd olunur. Davos İqtisadi Forumunun iqtisadiyyatın rəqabətqabiliyyətliliyi üzrə builki hesabatında Azərbaycan 35-ci yeri tutub. Azərbaycan beynəlxalq miqyaslı layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Bu gün biz tərəfdaşlarımızla birlikdə "Cənub Qaz Dəhlizi" layihəsini icra edirik. Bu, dünyanın ən böyük infrastruktur layihələrindən biridir. "Cənub Qaz Dəhlizi"nin əsas hissəsi olan TANAP qaz kəməri üzrə saziş 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında İstanbul şəhərində imzalanmışdır və bu kəmər gələn il istifadəyə veriləcəkdir. Tezliklə rəsmi açılışı olacaq Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiya arasında ən qısa yol olacaqdır. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub Nəqliyyat Dəhlizlərinin yaradılmasına böyük sərmayələr qoyur. Bu nəqliyyat dəhlizləri Avrasiyanın iqtisadi inkişafı üçün yeni imkanlar açacaqdır".




Bir faktı nəzərə almaq lazımdır ki, Azərbaycan beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Bu gün ölkəmiz tərəfdaşları ilə birlikdə dünyanın ən böyük infrastruktur layihələrindən birini - "Cənub Qaz Dəhlizi"ni reallaşdırır. Tezliklə istifadəyə veriləcək başqa bir layihə - Bakı-Tbilisi-Qars dəmir yolu iki qitə - Avropa və Asiya arasında ən qısa yol olacaq. Həmçinin, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında fəal iştirak edir. Bu nəqliyyat dəhlizləri Avrasiyanın iqtisadi inkişafı üçün yeni imkanlar açacaq.

Bir sözlə, Azərbaycanın D-8 kimi böyük perspektivlər vəd edən yeni iqtisadi əməkdaşlıq təşkilatına qoşulmaq imkanı kifayət qədər realdır. Ona görə də şübhə etməmək olar ki, ölkəmizin gələcəkdə bu qurumun sıralarına daxil olması islam dünyasında əməkdaşlığın genişlənməsinə yalnız fayda verəcək. Lakin bu qədər təşkilatın inkişafına bu qədər fayda verəcək Azərbaycanın da öz şərtləri vardır. Bu, əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsilə bağlıdır. Azərbaycan Prezidenti çıxışında bu məsələyə ətraflı şəkildə toxundu: "Ermənistan 25 ildən artıqdır ki, Azərbaycanın tarixi torpaqlarını - Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu işğal edib. Həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. 1992-ci ildə Ermənistan Xocalı soyqırımını törədib. Bu hərbi cinayət nəticəsində 613 dinc azərbaycanlı qətlə yetirilib, onlardan 106-sı qadın və 63-ü uşaqdır. Minlərlə insan itkin düşüb və yaralanıb. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və azərbaycanlı mülki əhaliyə qarşı hərbi cinayətlərini davam etdirir. Ötən ilin aprelində təmas xəttində Ermənistanın silahlı hücumu nəticəsində mülki şəxslər və hərbçilər həlak oldular. Yüzlərlə yaşayış evi dağıdılıb. Azərbaycan Ermənistanın bu təxribatının qarşısını qətiyyətlə aldı, ordumuz torpaqlarımızın bir hissəsini erməni işğalçılarından azad etdi. Bundan sonra Ermənistan tərəfindən tamamilə dağıdılmış Cocuq Mərcanlı qəsəbəsi yenidən quruldu. 150 evdən ibarət bu qəsəbədə məktəb, tibb məntəqəsi və məscid tikildi. Bu məscid ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəridir.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək ki, onun əzəli torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaq.

Hörmətli görüş iştirakçıları, Azərbaycan islam həmrəyliyinə xüsusi əhəmiyyət verir və öz töhfəsini verir. 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub. Eyni zamanda, bu il Azərbaycanda 54 müsəlman ölkəsindən gələn 3 minə yaxın idmançının iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunları keçirilib. Biz bu gün dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Özünü müsəlman ölkələrinin dostu kimi qələmə verməyə çalışan Ermənistan Dağlıq Qarabağ və ətraf bölgələrdə məscidləri və dini abidələri dağıdıb. Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz".

***"Səs" Analitik Qrupu***

# Buxara şəhəri ilə tanışlıq azərbaycanlı qonaqlarda xoş təəssüratlar yaradıb





***Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti Buxara şəhərində olub. AZƏRTAC xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik Akif Əlizadənin, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzovun, aqrar siyasət komitəsinin sədri, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimovun, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, deputat Hikmət Babaoğlunun, deputat Cavanşir Paşazadənin və digərlərinin daxil olduğu nümayəndə heyəti şəhərlə yaxından tanış olub və silsilə görüşlər keçirib.***

Qonaqlar Buxara ilə tanışlığa Bahauddin Naqşibəndi məqbərəsini ziyarətlə başlayıblar. Onlara Bahauddin Naqşibəndi və məqbərənin tarixi haqqında məlumat verilib. Şeyxülislam kompleksin nəzdindəki Ali Mədrəsəsinin tələbələri ilə görüşüb, onlara xeyir-dua verib.

Mədrəsənin direktoru Xayderxan Yuldaşxujaev mədrəsə haqqında məlumat verib. Sonra qonaqlar kompleksin məscidində namaz qılıblar. Qonaqlar Buxaranın mərkəzindəki Mir Ərəb Mədrəsəsində də tələbə və müəllimlərlə görüşüblər.

Mədrəsənin direktoru Elov Jabir bildirib ki, şeyxülislam Allahşükür Paşazadə bu mədrəsədə təhsil alıb. O qeyd edib ki, Çeçenistanın birinci Prezidenti, mərhum Əhməd Kadırov, Rusiya Müftilər Şurasının sədri Ravil Qaynutdin və digərləri də bu mədrəsənin yetirmələridir.

Şeyxülislam deyib: "Hər dəfə buraya gələndə həm sevinir, həm də kədərlənirəm. Bunu izah etməyə ehtiyac yoxdur. Buranın hər daşı, hər kərpici mənə əzizdir".

Şeyx tələbələrə müraciətlə deyib: Siz gələcəyin alimləri və ilahiyyatçılarısınız, Allahın kəlamlarını insanlara çatdıracaqsınız. Yaxşı təhsil almaq, dini dəyərlərə dərindən yiyələnmək sizin borcunuzdur".

Qonaqlar IX-X əsrə aid İsmayıl Samani məqbərəsini, Samanilər bağını və digər tarixi yerləri gəzərək Buxarada keçirilən "Şəhər Günü" bayramına qatılıblar. Sonra şeyxülislam Allahşükür Paşazadə Mir Ərəb Mədrəsəsində təhsil aldığı illərdə ona dərs deyən müəllimi, şair və alim, azərbaycanlı İbrahim Qasımovun məzarını da ziyarət edib, ruhuna dua oxuyub.

Bununla da şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin Özbəkistana səfəri başa çatıb.

Xatırladaq ki, nümayəndə heyəti "İslam həmrəyliyi Özbəkistan-Azərbaycan dostluğu timsalında" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün Özbəkistanda səfərdə idi.

***Qulu Kəngərli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Buxara***

## Novruz Məmmədov: "AŞ-dan çıxmaq məsələsinə Azərbaycan özü qərar verə bilər"



"Bu gün dünya birliyinin ən çox ədalətə ehtiyacı var. Amma təəssüflər olsun ki, AŞ PA və digər belə qurumlar ədaləti kiçik geosiyasi maraqlara qurban verirlər". SİA-nın məlumatına görə, bunu Azərbaycan Prezidentinin Xarici siyasət məsələləri üzrə köməkçisi, şöbə müdiri Novruz Məmmədov jurnalistlərə açıqlamasında deyib. N.Məmmədov bildirib ki, ədalətin olmadığı yerdə isə Qərbin tez-tez bəhs etdiyi universal dəyərlərin heç bir yeri ola bilməz: "Ədalət yoxdursa, insan haqları, azadlıqları məsələlərindən məqsədli istifadə ediləcək, siyasi amil kimi ortaya qoyulacaq". Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan üzv olduğu beynəlxalq təşkilatların ədalətli olmasını istəyir: "Avropa Şurasının bir üzvünün ərazisinin bir hissəsini işğal altında saxlayan başqa bir dövlət də bu qurumun üzvüdür. Ancaq həmin işğalçıya - Ermənistana heç kim heç nə demir". N.Məmmədov qeyd edib ki, 21-ci əsrdə, insan intellektinin ən yüksək inkişaf etdiyi bir dövrdə dünyada, ölkələr arasında baş verən proseslər göz önündədir: "İraqda, Suriyada, Liviyada, Afrikanın onlarla dövlətində hər gün minlərlə insan həlak olur, amma bu barədə danışan yoxdur. Amma bu proseslər öz-özünə baş vermir. Belə olan halda isə təkcə bu proseslərin baş verdiyi dövlətlər əziyyət çəkmir. Təhlükə böyüyür və həmin böyük dövlətlər də son nəticədə bundan əziyyət çəkir. 20-ci əsrdə iki dünya müharibəsi olub, o müharibələri kiçik dövlətlər başlamayıb. Belə hallarda böyük dövlətlərin özləri üçün də ciddi təhlükələr yaranır. Əsas məsələ də budur". N.Məmmədov Azərbaycanın Avropa Şurasından (AŞ) çıxıb-çıxmaması məsələsi haqqında da danışıb: "Söhbət ondan gedir ki, buna Azərbaycan özü qərar verə bilər. Azərbaycan isə səbrlidir və lazım bildiyi zaman öz maraqları çərçivəsində hər bir addımı ata bilər. Avropa Şurası Parlament Assambleyasında da, Avropada da heç kim Azərbaycanın Avropa Şurasından çıxmasını istəmir. Məsələ Azərbaycanın bu qurumdan çıxarılması formasında da qoyula bilməz".

## İtaliya mətbuatı Azərbaycan-İtaliya münasibətlərinə dair konfransı geniş işıqlandırıb




Azərbaycan ilə İtaliya arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü münasibətilə İtaliya Senatında keçirilmiş "Azərbaycan və İtaliya arasında 25 illik əməkdaşlıq: strateji tərəfdaşlığa aparan yol" adlı konfrans İtaliya KİV-lərinin diqqət mərkəzindədir. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İtaliyanın "İl Giornale", "Globalist", "AGİ", "Agenzia Nova", "Agenparl", "Notizie Geopolitiche", "Globus Magazine", "Scenari İnternazionali", "Sicilian Network", "Daily Cases", "Andradelab", "Rete Sole" kimi mətbuat orqanlarının yaydığı məqalə, reportaj və müsahibələrdə ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlıq barədə məlumat verilir, konfransın məqsədinin Azərbaycan-İtaliya münasibətlərində əldə olunmuş nəticələrin və ikitərəfli münasibətlərin vəd etdiyi böyük perspektivlərin göstərilməsi olduğu bildirilir.

Məlumatlarda eləcə də, konfransda çıxış etmiş şəxslərin, o cümlədən İtaliya Senatının vitse-prezidenti Linda Lançilotta, xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Benedetto Della Vedova, mədəniyyət nazirinin müavini Antimo Çezaro, Senatın Avropa İttifaqı siyasəti daimi komissiyasının sədri Vanino Kiti, Azərbaycanın bu ölkədəki səfiri Məmməd Əhmədzadə, İtaliyanın Bakıdakı səfiri Auqusto Massari, Milli Məclisdə Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Azər Kərimli, İtaliya parlamentində Azərbaycanın dostları parlamentlərarası assosiasiyasının sədri senator Sercio Divina, Senatın Maliyyə və Xəzinə daimi Komissiyasının sədri, Azərbaycanın dostları parlamentlərarası assosiasiyasının sədr müavini Mauro Marino, Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev, SOCAR-ın vitse-prezidentinin müavini Vitaliy Bəylərbəyov, SNAM şirkətinin baş icraçı direktoru Marko Alvera, Azərbaycanın dostları parlamentlərarası assosiasiyasının üzvü senator Maria Rizzotti, senator, sabiq təhsil naziri Stefania Ciannini, İtaliya Daxili İşlər Nazirliyinin İtaliya İslam Şurasının müşaviri, İtaliya İslam Dini Şurasının (CO.RE.İS.) sədr müavini, ISESCO-nun Qərbdə Təhsil və Mədəniyyət Şurasının sədri Yəhya Pallaviçininin səsləndirdiyi fikirlərə də yer verilib.

## Yirji Şestak: Çexiya ilə Azərbaycan arasında siyasi əlaqələr yüksək səviyyədədir



Oktyabrın 23-də Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov ölkəmizdə səfərdə olan Çex Respublikası Senatının sədr müavini Yirji Şestakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasındakı əlaqələrin inkişaf perspektivləri müzakirə edilib. Milli Məclis sədrinin müavini Valeh Ələsgərov bildirib ki, Çexiya və Azərbaycan arasında istər parlament, istərsə də hökumət səviyyəsində əlaqələr yüksək səviyyədədir və ildən-ilə inkişaf edir. Qeyd edib ki, səfər çərçivəsində aparılacaq danışıqlar bu əlaqələrin daha da inkişafına töhfə verəcək. O, parlamentlərarası əlaqələrdən və digər sahələrdəki münasibətlərdən də bəhs edib, bu işdə dostluq qruplarının fəaliyyətini yüksək qiymətləndirib. Azərbaycana ilk dəfə səfər etdiyini bildirən Çexiya Senatının sədr müavini Yirji Şestak ölkəmizdə olmaqdan məmnunluğunu vurğulayıb. Çexiya və Azərbaycan arasında strateji tərəfdaşlıq sənədinin imzalandığını xatırladan qonaq siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu qeyd edib. Həmçinin iqtisadi sahədə də əməkdaşlığın genişləndirilməsi perspektivlərinin mövcud olduğunu vurğulayıb. Söhbət zamanı Çexiya və Azərbaycan şirkətlərinin, xüsusən də nəqliyyat sahəsində qarşılıqlı əməkdaşlıq etdiyini və bu münasibətlərin iki ölkə əlaqələrinə müsbət təsir etdiyi də bildirilib. Bu sahədə əməkdaşlığın daha da dərinləşdirilməsinə ehtiyac olduğu qeyd edilib. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycan-Bolqarıstan əlaqələri dostluq və əməkdaşlıq çərçivəsində

## *İlham Əliyev: "Bolqarıstan bizim üçün çox yaxın tərəfdaşdır, dost ölkədir"*



***Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlər sistemində əməkdaşlıq əlaqələrinin qurulmasına, transmilli layihələrin reallaşdırıcısıtək qlobal təhlükəsizlik məsələlərinə, Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən fəal aktor və regional güc kimi qəbul edilməkdədir. Həmçinin, Azərbaycanın Qərb və Şərq sivilizasiyaları, eyni zamanda, Şimal və Cənub arasında dəhliz rolunu oynaması əhəmiyyətli ölkə kimi onun nüfuzunu ortaya qoymuş olur. Əlbəttə ki, Azərbaycanın bu cür nailiyyətlərinin praqmatik və rasional xarici siyasət kursu nəticəsində əldə olunduğu da hər kəsə bəllidir. Azərbaycan ayrı-ayrı xarici dövlətlər, o cümlədən, qonşu ölkələrlə ikitərəfli münasibətlərə xüsusi əhəmiyyət verir.***

Yeri gəlmişkən, Bolqarıstan Respublikası Azərbaycanın müstəqilliyini 1992-ci ilin yanvarında tanıyıb və diplomatik münasibətlər isə həmin ilin iyununda yaradılıb. 1999-cu ilin dekabrında Bolqarıstanın Azərbaycanda, 2005-ci ilin fevralında isə Azərbaycanın Bolqarıstanda səfirliyi fəaliyyətə başlayıb. İki ölkə arasında əməkdaşlıq münasibətləri Ulu Öndər Heydər Əliyevin 1995-ci il iyunun 29-30-da Bolqarıstan Prezidenti Jelyu Jelyevin dəvəti ilə həmin respublikaya rəsmi səfərindən sonra daha da genişlənib. 2003-cü ilin oktyabr ayında isə ölkə Prezidenti seçilən Cənab İlham Əliyev Azərbaycan-Bolqarıstan münasibətlərinin genişlənməsinə xüsusi diqqət yetirib. Bolqarıstan Prezidenti Georgi Pırvanov 2004-cü ilin oktyabrında Azərbaycana rəsmi səfər edib.

Azərbaycan Prezidenti İlham Əliyev 2005-ci ilin sentyabrında və 2009-cu ilin noyabrında Bolqarıstana rəsmi və işgüzar səfərlərdə olub. 2008-ci il martın 10-da və 2009-cu il yanvarın 22-də isə Bolqarıstan Prezidenti Georgi Pırvanov Azərbaycana gəlib. Qarşılıqlı səfərlər çərçivəsində keçirilən görüşlərdə ölkələrarası iqtisadi, siyasi və mədəni əlaqələrlə bağlı məsələlər müzakirə olunub. Eyni zamanda, Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Bu günlərdə Azərbaycanda səfərdə olan Bolqarıstan Respublikasının prezidenti Rumen Radevin Azərbaycana səfəri isə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu. Ölkələrimiz arasındakı əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu söylənildi. Keçirilən görüşdə Prezident İlham Əliyev bildirib ki, Bolqarıstan bizim üçün çox sıx tərəfdaşdır və dost ölkədir. Bolqarıstan Prezidenti Rumen Radev isə deyib ki, Azərbaycan Şərqi və Mərkəzi Avropada şaxələndirmə imkanlarının təmin edilməsində mühüm rol oynayır.

### Azərbaycan Şərqi və Mərkəzi Avropada şaxələndirmə imkanlarının təmin edilməsində mühüm rol oynayır

Azərbaycanla Bolqarıstan arasında diplomatik münasibətlərin qurulması Azərbaycanın dövlət müstəqilliyinin ilk dövrünə təsadüf edir. Hər iki dövlət beynəlxalq hüququn ümumi qəbul edilən norma və prinsiplərini rəhbər tutaraq, əlaqələrini uğurla inkişaf etdirməkdədir. Həmin vaxtdan etibarən sabit inkişaf xətti götürərək, tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlər bir çox mühüm hadisələrlə əlamətdar olubdur.

Onu da, xüsusi olaraq, vurğulamaq lazımdır ki, ölkə başçılarının qarşılıqlı səfərləri son illər sürətlə inkişaf edən ikitərəfli münasibətlərə əlavə impulslar vermiş və bir sıra uğurlu nəticələrlə yadda qalmışdır. Bu gün ölkələrimiz arasında mövcud olan münasibətlərin xarakteri, deməyə əsas verir ki, dünya siyasətində özünəməxsus yeri olan Bolqarıstan Azərbaycanla mövcud əlaqələrin daha da genişləndirilməsində maraqlıdır. Bu maraq, ilk növbədə, Azərbaycanın Qərblə Şərqi qovuşduran geostrateji tranzit xətlərinin təmas məkanında yerləşməsi, qlobal enerji və kommunikasiya layihələrinin reallaşdırılmasında aparıcı rol oynaması, habelə, zəngin intellektual resurslara malik olması ilə şərtlənir.

Bolqarıstan Respublikası iqtisadiyyatın bütün sahələrində ölkəmizlə əməkdaşlıq əlaqələrini genişləndirməkdə maraqlıdır. Bu maraq Azərbaycan və Bolqarıstan respublikalarının prezidentləri arasında aparılan danışıqlarda, həmçinin, iki dövlətin yüksək vəzifəli rəsmilərinin və iş adamlarının keçirdikləri görüşlərdə bir daha təsdiqlənib və bu münasibətlə bir sıra hökumətlərarası sənədlər imzalanıbdır.

Genişləkibli görüşdən sonra mətbuata bəyanatla çıxış edən Prezident İlham Əliyev deyib ki, Bolqarıstan və Azərbaycan dost, tərəfdaş ölkələrdir və bizim tərəfdaşlığımızın çox böyük əhəmiyyəti var: "İki il bundan əvvəl, biz strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni imzaladıq və əslində, bu Bəyannamənin adı özlüyündə bir göstəricidir. Bolqarıstan və Azərbaycan strateji tərəfdaşdırlar. Siyasi əlaqələrimiz ən yüksək səviyyədədir və bu gün əsas müzakirə mövzusu iqtisadi, nəqliyyat, energetika, turizm sahələrində və digər sahələrdə əməkdaşlığa əsaslanırdı. Bu sahədə böyük perspektivlər ola bilər. Təbii ki, qarşılıqlı ticarət dövriyyəsinin həcmi bizi qane edə bilməz".

Prezident İlham Əliyev mətbuata bəyanatında da Bolqarıstan-Azərbaycan əlaqələrinin müxtəlif aspektlərindən geniş bəhs edib. Bildirib ki, Bolqarıstan və Azərbaycan dost, tərəfdaş ölkələrdir və bu tərəfdaşlığın çox mühüm önəmi var. Buna görə də nəqliyyat, energetika, turizm sektorlarında və iqtisadiyyatın digər sahələrində hazırda ikitərəfli münasibətləri daha da möhkəmləndirmək ehtiyacı duyulur. Başlıcası isə qarşılıqlı ticarət dövriyyəsinin həcmi artırılmalıdır. Dövlətimizin başçısı, eyni zamanda, Azərbaycan Hava Yolları tərəfindən Sofiyaya, Sofiyadan Bakıya təyyarə reysləri açılacağını, Azərbaycan qazının bir neçə ildən sonra Bolqarıstan bazarına çatdırılacağını, yaxın günlərdə istifadəyə veriləcək Bakı-Tbilisi-Qars dəmir yolundan bütün ölkələr, o cümlədən, Bolqarıstanın da fəal iştirak edəcəyini, bütün bunlarla yanaşı, humanitar sahədə əməkdaşlığın daha da genişlənəcəyini ifadə edib.

### Azərbaycan - regional əlaqələrə mühüm tərəfdaş

Ölkə Prezidenti keçirilən görüşdə bildirib ki, bu gün regional əlaqələrə mühüm tərəfdaş olan Azərbaycan qazı, o cümlədən, Bolqarıstanın enerji təhlükəsizliyi məsələlərinin həllində öz rolunu oynayacaq: "Biz energetika sahəsində strateji tərəfdaşıq. Bolqarıstan "Cənub Qaz Dəhlizi"nin üzvüdür. Bolqarıstan Bakıda bir neçə dəfə keçirilmiş "Cənub" qaz dəhlizinin Məşvərət Şurasının iclasında həmişə yüksək səviyyədə təmsil olunmuşdur və "Cənub Qaz Dəhlizi"nin icrası ölkələrimizi bir-birinə daha da yaxın edəcək. Bu, nəhəng transmilli layihədir. "Cənub Qaz Dəhlizi"nin maliyyə tutumu 40 milyard dollara bərabərdir və bu layihə 7 ölkəni birləşdirir. Azərbaycanın nəhəng "Şahdəniz" yatağından qaz Avropaya, region ölkələrinə, o cümlədən, Bolqarıstana çatdırılacaq. Əminəm ki, Azərbaycan qazı Bolqarıstanın enerji təhlükəsizliyi məsələlərinin həllində öz rolunu oynayacaq".

Azərbaycan Prezidenti çıxışında, həmçinin, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizinin - tarixi torpağımız olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayonun işğal olunduğunu, bu ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirildiyini, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyini xatırladıb. Bildirib ki, ATƏT, NATO, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların da bununla bağlı müvafiq qərar və qətnamələri var. Azərbaycan və Bolqarıstan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamədə də Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı prinsipi çərçivəsində nizamlanmasının zəruriliyi diqqətə çatdırılıb. Prezident İlham Əliyev belə ədalətli mövqeyə görə Bolqarıstana minnətdarlığını bildirib.

Beləliklə, Bolqarıstan prezidentinin Azərbaycana səfəri ikitərəfli əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini təsdiqləməklə yanaşı, həmçinin, əlverişli coğrafi mövqeyinə, zəngin təbii resurslarına və demokratik inkişaf səviyyəsinə görə Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilən Azərbaycanla əməkdaşlığın daha da dərinləşməsinə və respublikamızın avrostrukturlara daha dinamik inteqrasiyasına ciddi maraq göstərir. Eyni zamanda, Bolqarıstan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin gerçəkləşməsində əsas söz sahibi kimi çıxış edən Azərbaycanın, bütövlükdə Avropanın enerji təhlükəsizliyindəki mühüm rolunu yüksək qiymətləndirir, respublikamızla enerji sektorunda fəal əməkdaşlıq niyyətini bir daha təsdiqləyir.

***RƏFİQƏ KAMALQIZI***

# Xalqın mənəvi dəyərlərinin qoruyucusu və hamisi - Ulu Öndər Heydər Əliyev

***Xalqların taleyində, onların müqəddəratının həll olunmasında, bir millət olaraq, özlərini təsdiqdə azadlıq əsas rol oynayır. Azadlıq və müstəqillik bir millətin ayrı-ayrılıqda vətəndaşlarının ən müqəddəs nemətidir. Həm də bu, real faktdır ki, xalqların taleyində, onun beynəlxalq mövqeyinin formalaşmasında tarixi şəxsiyyətlərin müstəsna xidmətləri olmuşdur.***



Bu baxımdan, xalqımız həmişə öz uzaq və yaxın tarixi ilə qürur duyur. Daim müstəqillik arzusu ilə çırpınan, bu yolda yorulmadan mübarizə aparan xalqımız yaxın keçmişimizdə bu arzusunu gerçəkləşdirdi. Müstəqilliyinin əldə edilməsi yolunda tökülən qanları yerdə qoymayan xalqın xilaskarı Ümummilli Lider Heydər Əliyevin əməyi danılmazdır. O özünün yorulmaz əməyi, qəti qərarları ilə müstəqilliyimizin formalaşmasında və inkişafında sabitliyə görə, dünya ölkələri arasında ölkəmizin nüfuzunun yüksəldilməsində öz səyini əsirgəməmiş və bu yolda yorulmadan mübarizə aparmışdır. Xalqımız, haqqlı olaraq, Onu Azərbaycan dövlətinin qurucusu və banisi adlandırmışdır. O, bəşəriyyətin nadir dühaları və tarix yaratmağa qadır şəxsiyyətlərdən idi.

## Həlledici məqam

1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etsə də, daxili vəziyyət son dərəcə ağır, hakimiyyət böhranı kritik durumda idi. İctimai həyatın bütün sahələrində xaos və hərc-mərclik baş alıb gedirdi. Orduda da vəziyyət ağırlaşır və fərarilik artırdı. Ermənistanın təcavüzü gündən-günə güclənirdi. Gənc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında gərgin mübarizə gedirdi. 1993-cü ilin yayında isə böhranlı vəziyyətin xaos və anarxiyanın son nöqtəsi olaraq vətəndaş müharibəsi təhlükəsi yarandı. Vətənin belə ağır günündə xalq üzünü Naxçıvan MR-in Ali Məclisinin sədri olan Ulu Öndər Heydər Əliyevə tutdu. Ulu Öndər Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi. Ulu Öndər Heydər Əliyev çox qısa bir zamanda Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bununla da, 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi.

Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi-iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirmişdir. O, fenomen şəxsiyyət kimi çağdaş tariximizdə əbədiyaşarlıq qazanaraq, hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Məhz dünya miqyaslı ictimai-siyasi xadim Heydər Əliyevin titanik əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycan dövləti qurulmuş və ölkəmiz dünya məkanında öz layiqli yerini tutmuşdur.

Ulu Öndər Heydər Əliyev vaxtilə söyləsaid "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" tarixi fikri bu gün də xalqımız tərəfindən qürurla xatırlanır. Dahi Öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdır.

## Mənəvi dəyərlərin dirçəliş dövrü

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızın həyatında geniş vüsət alan ictimai-siyasi proseslər, iqtisadi islahatlar, mədəni hadisələr müsbətə doğru əsaslı dəyişikliklərə təkan vermişdi. İqtisadiyyatda əldə edilən dəyişikliklər, mədəniyyətin yüksəlişi və mənəvi dəyərlərin dirçəlişinə əsas olmuşdur. Hələ ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyev özünü milli dərk hissinin güclənməsinə yönəltmişdir. Bu baxımdan da, milli şüurun oyanışında, azərbaycançılıq ideyasının formalaşmasında Onun xidmətləri əvəzsizdir. Müstəqil dövlətçiliyimizin formalaşmasında və mənəvi-ideoloji əsası dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmlənməsində həlledici rol oynamışdır.

Azərbaycan dilinin və ədəbiyyatının dərindən öyrənilməsi, dövlət dili kimi mənimsənilməsi Onun xalqına olan dəyərindən irəli gəlirdi. Elm xadimlərinə olan qayğısı, hələ sovet dönəmində gənc alimlərin elmi kəşflərinin təsdiqində iradə nümaiş etdirməsi xalqımızı özünə inama səsləməsindən irəli gəlirdi. Sovetlər dövründə azərbaycanlı mədəniyyət xadimlərinin, teatr truppalarının, gülüş ustalarının, opera və balet ustalarının beynəlxalq tədbirlərdə iştirakına imkan yaradan Ulu Öndər Heydər Əliyev bununla da Azərbaycan xalqının potensial gücünü dünyaya sübut etmişdir.

## Mədəniyyət işçiləri hər zaman Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı ilə əhatələnmişdir

Ədəbiyyatda, kino və teatr sənətində qarşılarına çıxan hər hansı bir çətinliyin, xalqımızın tarixinin saxtalaşdırılmasına, fikir və söz sahiblərinin kütləvi repressiyasının qarşısının alınmasında Onun nüfuzu sipər olmuşdur. Bu gün elə bir mədəniyyət işçisi, elə bir elm xadimi tapmaq mümkün olmaz ki, Onun bu cəfakeşliyini unuda bilsin. Hətta onların xatirələrini dinlədikcə, insan riqqətə gəlir. Mədəniyyətimizin, elmimizin inkişafına böyük diqqət ayırması bugünkü müstəqil Azərbaycanın sütunlarının möhkəmlənməsinə yönəldilmiş iradəli, mətin və düşünülmüş addımlar idi.

Ulu Öndər Heydər Əliyev deyirdi ki, incəsənət xalqın formalaşmasında, insanın mənəvi aləminin zənginləşməsində, şəxsiyyətin ahəngdar inkişafında mühüm vasitədir. İncəsənət xadimləri isə bütün diqqətlərini ideya və bədii səviyyənin yüksəldilməsinə, onların mövzu və janr rəngarəngliyinə yeməlidirlər. Xalqın düşüncəsinə möhür vuran, onun mədəni dünyasını zənginləşdirən mədəniyyət işçiləri, şairlər, yazıçılar, bəstəkarlar, rəssamlar, heykəltəraşlar, teatr və kino xadimləri hər zaman Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı ilə əhatələnmişdir. Xalq şairi Məmməd Arazla, bəstəkar Emin Sabitoğlu ilə görüşü Onun böyük ürək sahibi, qayğıkeş ata, xalqına hörmət edən vətəndaş olmağının bir təcəssümünə çevrilmişdir. O, Azərbaycan mədəniyyətini dizləri üstündən ayaqları üstünə qaldırdı.

Möhtərəm Prezidentimizin çox düzgün vurğuladığı kimi, "nə qədər ki, müstəqil Azərbaycan mövcuddur, bu dövlətin qurucusu da tariximizdə daim yaşayacaq və əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider örnəyi kimi xatırlanacaqdır!".

*Sona Həmidova,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

# Hökumət hərbi qulluqçularla bağlı qaydanı dəyişdi

Azərbaycan Nazirlər Kabineti "Təqvim ilində, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illərində növbəti məzuniyyətdən istənilən səbəbdən istifadə etməyən hərbi qulluqçuya (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) həmin təqvim ili, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illəri üçün istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi qaydasının və məbləğinin müəyyən edilməsi barədə" qərarında dəyişiklik edib. SİA-nın xəbərinə görə, bununla bağlı qərarı Baş nazir Artur Rasi-zadə imzalayıb. İndiyədək istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin, Hərbi Prokurorluğunun saxlanılması üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər hesabına yalnız nağdsız qaydada həyata keçirilirdi.



Dəyişikliklə isə, istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi nəzərdə tutulan dövlət qurumlarının saxlanılması üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər "Nağdsız hesablaşmalar haqqında" qanununa uyğun olaraq həyata keçiriləcək. "Nağdsız hesablaşmalar haqqında" qanunun məqsədi Azərbaycan ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətləndirməkdir.

# Orelia Buşez: Gələn il Fransada "Naxçıvanın arxeoloji xəzinəsi" adlı sərgi təşkil ediləcək



Mən Naxçıvanın bir çox yerlərində oldum və zəngin təəssüratlarım var. Naxçıvan sakinlərinin yüksək qonaqpərvərliyi məni valeh etdi. Duzdağdakı Fizioterapiya Mərkəzinə heyran qaldım. Bu yer çox qeyri-adidir. Burada insanlar rahatlıq və şəfa tapa bilirlər. Bu, çox yaxşıdır. Bu sözləri AZƏRTAC-a müsahibəsində oktyabrın 18-19-da Naxçıvan Muxtar Respublikasında səfərdə olan Fransanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Orelia Buşez deyib. Səfər çərçivəsində muxtar respublikada keçirdiyi görüşlər barədə danışan diplomat bildirib ki, burada bütün sahələrdə əlaqələri müzakirə etmək imkanı oldu. O vurğulayıb ki, əməkdaşlıq bir çox sahələrdə inkişaf etdirilir. Xüsusilə universitetlər arasında əlaqələr fransız dilinin öyrənilməsi üçün böyük rol oynayır. Orelia Buşez deyib: "Bildiyiniz kimi, fransız arxeoloqlar 10 ildən artıqdır ki, Naxçıvanda çalışırlar. Onların burada fəaliyyət göstərmələri üçün hər cür şərait yaradılıb. Gələn il Fransadakı muzeylərdən birində həmin tapıntılar əsasında "Naxçıvanın arxeoloji xəzinəsi" adı altında sərgi təşkil olunacaq".

Naxçıvanın gözəlliyinin, təmizliyinin və abidələrinin qədimliyinin dünya üçün bir nümunə olduğunu vurğulayan səfir qeyd edib ki, bu abidələr Azərbaycanın tarixi və mədəniyyəti haqqında bizə çox şeylər danışır. "Mən burada Möminə xatun türbəsini və Bayraq Meydanını çox bəyəndim. Naxçıvanqala Naxçıvanın tarixini yaşadır. Həmçinin Nuh Peyğəmbərin də məzarüstü türbəsi heyranedicidir. Bir sözlə, naxçıvanlılara qonaqpərvərliklərinə görə "çox sağ ol" deyirəm. Mən burada olduğuma görə çox şadam", - deyə fransalı diplomat bildirib.

## Yeni Azərbaycan Partiyası qürur mənbəyi olaraq qalacaq



Dünən YAP Yasamal rayon təşkilatının Hüseyn Cavid prospekti 506 ünvanında yerləşən ərazi ilk partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyasının üzvü Aytən Əhmədova partiyanın ötən dövr ərzində böyük inkişaf yolu keçdiyini vurğulayıb. Azərbaycan dövlətçiliyinin formalaşmasında, ictimai-siyasi sabitliyin bərqərar olmasında və ölkəmizdə qazanılan uğurlarda Yeni Azərbaycan Partiyasının mühüm rol oynadığını diqqətə çatdırıb.



Tədbirdə YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov çıxış edərək Yeni Azərbaycan Partiyasının XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə hökm sürən mürəkkəb ictimai-siyasi şəraitdə yarandığını və bu gün, nəinki ölkəmizdə, eləcə də, regionda aparıcı siyasi təşkilata çevrildiyini bildirib. YAP-ın keçdiyi keşməkeşli yola nəzər salan T.Əhmədov qeyd edib ki, tarixi zərurətdən yaranan partiya çətin, eyni zamanda, şərəfli yol keçməklə yanaşı, həm də ictimai-siyasi mühitdə böyük nüfuz sahibidir: "Yeni Azərbaycan Partiyası Ümummilli Lider Heydər Əliyevin ideyalarını gerçəkliyə çevirən nüfuzlu siyasi təşkilatdır. 700 mindən çox üzvü özündə birləşdirən partiya arxada qoyduğumuz 25 il ərzində şərəfli və qüdrətli bir yol keçib. Bu illər ərzində ölkəmizin bütün sahələrində əldə etdiyi uğurların təməlində dayanan, yekdil xalq birliyini özündə ehtiva edən YAP hələ uzun illər Azərbaycan xalqına xidmət göstərəcək güc sahibi və qürur mənbəyi olaraq qalacaqdır". Rayon təşkilatı sədri bildirib ki, hazırda dünyanın inkişaf etmiş, demokratik prinsiplərinə sadiq, hüquqi dövlətləri sırasında mühüm yeri olan Azərbaycanın müstəqilliyinin qorunub- saxlanılmasında və inkişaf etdirilməsində YAP-ın xidmətləri danılmaz və misilsizdir.

Daha sonra YAP sıralarına daxil olmuş şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

**NƏZAKƏT**

## YAP Nəsimi rayon təşkilatında veteran qadınlarla görüş keçirilib



YAP Nəsimi rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə partiyanın bir qrup fəal veteran qadınları ilə görüş keçirilib.

Görüşdə YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxış edərək, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qətiyyəti və iradəsi ilə yaradılmış Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi yola nəzər salıb. Bildirib ki, bu gün ölkəmizin ictimai-siyasi həyatının aparıcı qüvvəsinə çevrilən YAP regionun ən iri və ən güclü siyasi partiyalarından biridir: "Yeni Azərbaycan Partiyası ötən 25 il ərzində bir çox uğurlara imza atıb, partiyanın sıraları genişlənək 700 mini ötüb və beynəlxalq nüfuzu artaraq möhkəmlənib. Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin Sədrliyi ilə böyük inkişaf yolunu keçib. Bu gün mövcud iqtidarın monolit birliyi nəticəsində Ulu Öndərin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan Onun müəyyən etdiyi strateji xətlə inamla getməkdə və inkişafını davam etdirməkdədir. Bu xətti əzmlə irəli aparan Ulu Öndərin layiqli varisi, praqmatik dövlət xadimi, dünya miqyasında böyük hörmət və nüfuza malik Prezidentimiz İlham Əliyevdir".

Görüşdə Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, YAP Qadınlar Şurasının sədri, Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva Ümummilli Liderin qurub-yaratdığı azad, müstəqil və demokratik Azərbaycanın inkişafının yüksək səviyyədə olduğunu qeyd edib. O, Azərbaycan qadınlarının daim ölkəmizin inkişafına töhfə verməkdən məmnunluğunu bildirib: "Ulu Öndər Heydər Əliyev qadınların cəmiyyətdəki nüfuzuna, onların mənəvi potensialına, dərin müşahidəsi və həyati biliyinə bələd idi. Zərif, həm də çox güclü Azərbaycan qadınının dövlətçilik və müstəqiliyimizin çətin yollarında böyük dayaq olacağına inanırdı. Bu inam ilə 1995-ci ildə YAP Qadınlar Şurası yaradıldı. Qısa bir müddətdə bu şuranın tərkibinə axın-axın qadınlarımız gəldi. Bu, Azərbaycan qadınına olan önəmin göstəricisidir". N.Əliyeva bildirib ki, ölkəmizin bugünkü sabitliyinə və əmin-amanlığına görə, ilk növbədə, dövlətimizin başçısı İlham Əliyevə minnətdar olmalıyıq. Azərbaycan tarixində özünəməxsus yer tutan Yeni Azərbaycan Partiyası ölkəmizin inkişafında da xüsusi rola malikdir. Görüşdə çıxış edən YAP Nəsimi rayon təşkilatı qadınlar şurasının sədri Gülarə Verdiyeva, YAP Nəsimi rayon təşkilatı idarə heyətinin üzvü Səriyyə Əbilhəsənova bildiriblər ki, Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərdə Yeni Azərbaycan Partiyasının böyük rolu var. Sonra bir qrup veteran qadınlar mükafatlandırılıb. Görüşdə Milli Məclisin deputatları Sevinc Fətəliyeva, Sahibə Qafarova, Sədaqət Vəliyeva, Şuşa rayon icra hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva və başqaları iştirak ediblər.

**N. ƏLƏDDİNQIZI**

# Özbaşınalıq AŞPA-nın dağılmasına gətirib çıxaracaq

*Azərbaycan Avropa Şurası kimi qərəzli mövqe sərgiləyən bir qurumda qalmaqda heç də israrlı deyil*




Uzun müddətdir ki, Azərbaycana münasibətdə haqsızlıq və qəddarlıq nümayiş etdirdiyi üçün AŞPA-nın fəaliyyəti, həmçinin, missiyası təəccüb və təəssüf doğurur. Sanki AŞPA Avropanın maraqlarına, demokratik prinsplərə deyil, hansısa şəxslərin və dairələrin maraqlarına xidmət etmək missiyasını öz üzərinə götürüb. Parlamentarilər elə bil ki, öz fəaliyyətlərinin cəza tətbiq etməkdən ibarət olduğunu zənn edirlər. Belə olan təqdirdə, yəni heç bir öhdəliyi olmayan təşkilat kimə lazımdır və xidməti nədən ibarətdir?

Anti-Azərbaycan şəbəkəsinin aktiv dəstəkçisi kimi tanınan Yaqland öz himayədarlarından aldığı tapşırığa əsasən, ölkəmizə qarşı iki qətnamə layihəsi imzalanmasına nail olmaqla yanaşı, hətta Azərbaycanın qurumun tərkibindən çıxarılması barədə hədələr işlətməkdən də çəkinmir. Qərəzli sənədlərin qəbul edilməsi, təzyiq cəhdlərinin artması Azərbaycanın Avropa Şurası ilə münasibətlərinə, sözsüz ki, öz mənfi təsirini edir. Lakin Azərbaycan Avropa Şurası kimi qərəzli mövqe sərgiləməkdə davam edəcək bir qurumda qalmaqda heç də israrlı deyil. Əslində, Prezident İlham Əliyev Avropa İttifaqının nümayəndələrini qəbul edərkən, səsləndirdiyi ittihamlar Avropa Şurası üçün mesaj idi və bu mesajlardan nəticə çıxarmaq gərəkirdi. Amma görünür, AŞPA hələ də doğru bir qərar qəbul etmək niyyətində deyil, yaxud erməniprəst qüvvələrin təsirindən və təzyiqindən yaxa qurtara bilmir. Uzun illərdir ki, Dağlıq Qarabağ probleminin həlli istiqamətində heç bir uğurlu nəticə əldə etməyən, əvəzində qərəzli kampaniyalar təşkil edən, əleyhinə haqsız qərarlar qəbul edən bir təşkilatı - Avropa Şurasını Azərbaycan tərk etsə, heç kəs buna əhəmiyyət verməyəcək. Terrorizmin, demək olar ki, rəsmi siyasət səviyyəsində qəbul edildiyi, digər dövlətin ərazisini işğal etmiş Ermənistan kimi işğalçı dövlətə daim himayədarlıq edən, lakin Azərbaycanın uğurlarına, demokratik prinsplərinə dəyər verməyərək təzyiq göstərməyə, nüfuzuna xələl gətirməyə səy göstərən AŞPA-nın tərkibində qalmaq, təbii ki, heç vaxt maraq kəsb edə bilməz. İnsan haqları və demokratiya Azərbaycan üçün həmişə prioritet hesab olunub və bütün bu prinsplər, Avropa Şurasına görə həyata keçirilmədiyi kimi, bu ali prinsplər bundan sonra da diqqət mərkəzimizdə olacaq. Məqsəd Azərbaycanın hüquqi-demokratik və dünyəvi dövlət olaraq inkişafını təmin etməkdən ibarət olub və olacaqdır.

### *Azərbaycan güclü və müstəqil dövlətdir*

Məsələ burasındadır ki, Azərbaycan Avropa Şurasını tərk edəcəyi təqdirdə, digər Avropa qurumları ilə münasibətlərinin soyuyacağı istisna edilmir. Təbii ki, Azərbaycanın Avropa Şurasından çıxması Ermənistanın və Avropadakı erməni lobbisinin də maraqlarına xidmət edir. Eyni zamanda, Rusiya bundan faydalanmağa çalışaraq, Azərbaycanla əlaqələrin və yaxınlığın ön plana keçməsinə çalışacaq. Amma bütün bunlara baxmayaraq, kənar təzyiqləri heç zaman qəbul etməyən Azərbaycan öz prinsipial mövqeyindən, dövlətçilik maraqlarından, ərazi bütövlüyü prinsplərindən çıxış edərək, uğurlu siyasətini davam etdirmək əzmindədir. Azərbaycan güclü, müstəqil dövlətdir və Avropa Şurasının özü Azərbaycanla əlaqələr qurmaqda ölkəmizdən daha çox maraqlıdır. Yeni Azərbaycanın Şərqlə Qərbi birləşdirən fəlsəfəsi olmadan AŞPA-nın özü üçün də çətin olacağını parlamentarilər çox yaxşı başa düşürlər. Belə bir sual meydana çıxır: illər boyu Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində, yurd-yuvalarından didərgin düşmüş insanların, məcburi köçkünlərin hüquqlarının bərpası sahəsində, bir sözlə, separatizm və terrorçuluqla mübarizədə heç bir nailiyyət əldə etməyən bir təşkilat Azərbaycana, yoxsa Şərqlə Qərbi birləşdirən Azərbaycan bu təşkilata daha çox lazımdır?

### *Avropa ölkələri Avropa Məhkəməsinin qərarlarını qulaqardına vurduqları halda...*

Bir çox dövlətlər, ələlxüsus, Avropa ölkələri Avropa Məhkəməsinin qərarlarını qulaqardına vurur, lakin onların heç birinin üzərində təzyiq vasitəsindən istifadə edilmir və məsələlər müzakirəyə çıxarılmır. Bir çox dövlətlər öz qanunlarını daha üstün hesab etdiklərini çəkinmədən bəyan edirlər. Almaniya kansleri Angela Merkel AŞPA qərarlarını özləri üçün beşinci dərəcəli hesab etdiyini gizlətmir. AŞPA qərarları hesaba alınmır. Maraqlısı budur ki, baş katib bütün bu presendentləri lazımsız kağız qırıntıları kimi zibil qutusuna atır, amma Avropa Məhkəməsinin azərbaycanlı məhbus İlqar Məmmədovla bağlı bircə məsələsində ilişib qalıb və qərəzini gizlətməkdən çəkinmir.

"The Guardian"da 2014-cü ildə dərc olunmuş Britaniyanı Avropa Şurasının yurisdiksiyasından çıxmağa çağıran məqaləsində Yaqlandın, "Azərbaycan kimi ölkələr bundan presedent kimi istifadə edə bilər" deyə təşviş keçirməsi başa düşüləndir. Baş katib üçün düşmən mövqedə dayandığı ölkə daim Azərbaycan olub. Sanki Avropada Azərbaycandan başqa bir ölkə yoxdur və Qərb ölkələrində insan hüquqlarının pozuntusuna rast gəlmək mümkün deyil. Halbuki ən azından son Kataloniya hadisələri, küçələrə axışan insanlara qarşı zorakılıq, seçki qutularının dağıdılması və kütləvi həbslər bu fikri tamamilə təkzib edir.

Öz fəaliyyəti dövründə daim ikili standartlar siyasəti yürüdən Avropa Şurası Azərbaycanın uğurları və demokratik islahatları bir hesabatında da nəzərə alınmırsa, illərlə davan edən Dağlıq Qarabağ probleminin həllində heç bir müsbət nəticəyə nail olmursa, bu təşkilatda üzv dövlət olaraq qalmağın ölkəmizə nə kimi əhəmiyyəti ola bilər? Azərbaycan daim Avropa Şurası ilə münasibətlərinə həssas yanaşaraq, bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan tərəfdaşlığa dəyər verməyə çalışsa da, buna adekvat cavab ala bilmirsə, əksinə, daim separatçıların, terrorçuların və işğalçı qüvvələrin maraqlarından çıxış edərək, ölkəmizə təzyiq göstərmək məqsədilə ikili standartlar siyasəti sərgilənirsə, bu qurumun tərkibindən uzaqlaşmaq heç bir narahatlıq doğurmur.

**İnam HACIYEV**

# Azərbaycan gəncliyi qələbə və zəfər əzmindədir!

*Aydın Hüseynov: "Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir"*



Dünən Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatı gənclər birliyi və Qaradağ rayon gənclər idman idarəsi ilə birlikdə "2017-2021-ci illər üçün Azərbaycan Gəncliyi Dövlət Proqramı"nın qəbul olunmasına həsr olunmuş "Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Dövlət Gənclər Siyasəti" bu gün də davam etməkdədir" mövzusunda tədbir keçirib.

Tədbiri giriş sözü ilə açan YAP Qaradağ rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü, millət vəkili Aydın Hüseynov bildirib ki, əsası Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasəti bu gün Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir: "Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir və Azərbaycan gəncliyinin sabahına daha böyük nikbinliklə və inamla baxmağa əsas verir. Təsadüfi deyil ki, partiyamızın Sədri, Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən və onlara hərtərəfli diqqət göstərilməsindən ibarətdir".



YAP Qaradağ rayon təşkilatının sədri onu da bildirib ki, ölkəmizin ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası uğurlu fəaliyyəti ilə ictimaiyyətin güclü dəstəyini qazanıb. Belə ki, partiyanın həyata keçirdiyi bir sıra layihələr isə bu dəstəyi daha da gücləndirir: "YAP-ın müxtəlif sahələri özündə ehtiva edən müxtəlif səpkili layihələrində cəmiyyətin bütün təbəqələri əhatə olunub. Cəmiyyət üzvləri də Yeni Azərbaycan Partiyası tərəfindən atılan bu addımları həmişə yüksək qiymətləndirmiş, bu cür aksiyalarda böyük fəallıq nümayiş etdirmişlər. Bütün bunlardan əlavə, ölkə gəncliyi, onlara qarşı olan diqqət və qayğı da, YAP-ın fəaliyyətində əsas yerlərdən birini tutur".

Tədbirdə çıxış edən Qaradağ rayon gənclər və idman idarəsinin rəisi Elçin Abbasov da, öz növbəsində, qeyd etdi ki, Azərbaycanda gənclər siyasəti, həqiqətən də, çox böyük əhəmiyyətə malikdir: "Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan bu siyasət nəticəsində Azərbaycan gəncliyi yüksək inkişaf mərhələsini yaşayır. Ulu Öndərimizin müəyyənləşdirdiyi gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasət, eyni zamanda, müasir dövrün tələblərinə və reallıqlarına uyğun olaraq mahiyyət və keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub".

"Bu siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin göstərilməsindən ibarətdir"-deyə qeyd edən E.Abbasov onu da bildirib ki, son illər respublikamızda həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati - hüquqi şərait və təminatların yaradılmasını sürətləndirib, onların ictimai-siyasi fəallığının artmasına kömək edib.

Tədbirdə çıxış edən digər gənclər də bildiriblər ki, Prezident İlham Əliyev tərəfindən ölkədə həyata keçirilən gənclər siyasəti gənclərin bütün təbəqələrinin hərtərəfli inkişafını, ölkənin ictimai-siyasi həyatında onların yaxından iştirakını təmin etməkdədir.

**Rövşən NURƏDDİNOĞLU**

# YAP Binəqədi rayon təşkilatında "Dövlət qulluğu və idarəetmə" adlı kitabın təqdimatı olub



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında Binəqədi rayon icra hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı, rayon gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə hüquq üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti Nazənin Hüseynovanın "Dövlət qulluğu və idarəetmə" adlı kitabının təqdimatı keçirilib.



Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov dövlət qulluğu və idarəetmə rifah səviyyəsinin, hüquq və azadlıqların təminat səviyyəsinin yüksəldilməsində, sosial siyasətinin yerinə yetirilməsində, sosial sabitliyin təmin olunmasında, dövlətin vəzifə və məqsədlərinin həyata keçirilməsində kitabın mühüm əhəmiyyət daşıdığını bildirib. Dövlət qulluğu və idarəetmənin səmərəliliyi, ilk növbədə, dövlət qulluqçularının peşəkar fəaliyyətindən, məsuliyyətindən və şəxsi keyfiyyətlərindən asılıdır. Dövlət qulluqçusu dövlətin siyasətini, aparılan kompleks islahatları öz nümunəvi davranışı, peşəkar xidməti fəaliyyəti ilə dəstəkləməli, etik və məsuliyyətli olmalıdır.

Daha sonra çıxış edən Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Aygün Əliyeva Binəqədi rayon icra hakimiyyətinin rayonda ziyalılarla aparılan işə, onların uğurlarının dəstəklənməsinə hər zaman önəm verdiyini bildirib: "Prezident İlham Əliyevin uğurlu və məqsədyönlü siyasəti ilə ölkədə xalqa xidmət müstəvisində səmərəli və şəffaf, peşəkar və müasir idarəetmə modeli qurulub, vətəndaş-dövlət qulluqçusu arasında yeni düşüncə tərzinin, peşəkar kadr potensialı formalaşdırılıb".

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutunun direktoru, professor Gülnarə Qurbanova ölkədə səmərəli və müasir idarəetmənin qurulması istiqamətində Cənab Prezidentin apardığı siyasətin önəmindən danışaraq, müasir dövlət qulluğu ilə idarəetmə arasındakı qarşılıqlı əlaqənin elmi təhlilinin aktuallığını vurğulayıb. Qeyd edib ki, müasir dövlət qulluqçusu xalqına, millətinə xidmət edən peşəkar və mədəni, məsuliyyətli və yüksək hazırlıqlı olmalıdır.

Sonda çıxış edən kitabın müəllifi, dosent Nazənin Hüseynova tədbirin təşkilatçılarına təşəkkürünü bildirib. Qeyd edib ki, uzun illərdir ki, apardığı tədqiqatların nəticələrinin, dövlət qulluğu ilə idarəetmənin əlaqəli şəkildə təqdim olunması müasir dövr üçün, xüsusilə, əhəmiyyətlidir: "Bu gün ölkəmizdə idarəetmədə köklü islahatların aparıldığı bir vaxtda, elm insanlarının da üzərinə böyük məsuliyyət düşür. Biz elm adamları, alimlər dərk edirik ki, bugünkü nailiyyəti görməklə kifayətlənməməli, dünənki problemləri araşdırmalı, tarixi inkişaf yolumuzu, milli dövlətçilik ənənələrimizi və gələcək inkişaf perspektivlərini də təhlil etməliyik ki, vətənə öz töhfəmizi verə biləк. Bu baxımdan, kitabda dövlət qulluğu və idarəetmə qarşılıqlı şəkildə araşdırılır, sosial dövlətdə idarəetmə və dövlət qulluğunun mahiyyəti, səmərəli idarəetmənin xüsusiyyətləri, ictimai nəzarət mexanizmi, kadr siyasəti, əlavə təhsil və təlim sistemi də təhlil olunur".

Sonda müəllif iştirakçıların suallarını cavablandırıb.

**ZÜMRÜD**

# Ermənistanın təxribatı nəticəsində şəhid olan hərbi qulluqçumuz torpağa tapşırılıb



***Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin şəhid olan əsgəri Cabbar Firuddin oğlu Zeynalovun nəşi dünən Saatlı rayonunun Heydərabad kəndinə gətirilərək dəfn edilib.***

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin yaxınları, xidmət etdiyi hərbi hissənin əsgər və zabit heyəti, Saatlı Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları iştirak ediblər. Tabut üzərinə örtülən Azərbaycan bayrağı şəhidin atasına təqdim olunub. Yaylım atəşindən sonra torpağa tapşırılan şəhid Cabbar Zeynalovun məzarı üzərinə əklil və qərənfillər qoyulub. Qeyd edək ki, Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, 1999-cu il təvəllüdlü Cabbar Firuddin oğlu Zeynalov oktyabrın 22-də şəhid olub.



# Rövşən Rzayev: "IX Zirvə görüşündə Azərbaycanın mövqeyi bir daha səsləndi"



***"Ümumiyyətlə, Azərbaycanla Türkiyə arasında əlaqələr hər iki tərəf üçün çox vacib və önəmlidir. Hər iki ölkə bir-birinə qardaşdır. Hər zaman olduğu kimi bir yerdə bütün məsələlərdə həmrəydirlər".***

Bunu SİA-ya açıqlamasında millət vəkili Rövşən Rzayev deyib. Onun sözlərinə görə, İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşü zamanı Prezident İlham Əliyevin çıxışına diqqətlə qulaq asdıqda isə bir daha görürsən ki, Azərbaycan həqiqətən də dünyaya açıq dövlətdir, dünyada ikitərəfli münasibətlərdə qarşılıqlı hörmət, inam və etibardan irəli gələn münasibətlərdir. Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib. Təbii ki, hər zaman olduğu kimi bu səfərdə də dövlət başçısı İlham Əliyev Azərbaycanın ən vacib və böyük problemi olan ərazi bütövlüyü ilə bağlı ölkəmizin mövqeyini səsləndirdi. Düşünürəm ki, bu məsələ istiqamətində də həm IX Zirvə görüşünün iştirakçıları, həm də digər dövlətlər Azərbaycanın mövqeyinə diqqətlə yanaşmalıdır və ədalətli mövqedən çıxış etməlidir".

# Azərbaycanda qeyri-neft ixrac potensialının genişləndirilməsində keyfiyyət infrastrukturunun rolu əhəmiyyətlidir

*Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənovun yap.org.az-a müsahibəsi*

***- Ramiz müəllim, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsi, qeyri-neft sektorunun yüksək inkişafının təmin edilməsi, ixrac və rəqabət imkanlarının genişləndirilməsi məqsədilə rəhbərlik etdiyiniz komitənin fəaliyyətini təşkil edən keyfiyyət infrastrukturu sahələrində son bir ildə hansı islahatlar aparılıb?***

- Dünya bazarlarında neftin qiymətinin kəskin şəkildə düşməsi, eləcə də gələcək dövrdə neftə tələbatın azalan templə səciyyələnməsi resurs ölkələri qarşısında iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, qeyri-neft sektorunun yüksək inkişafını, ixrac və rəqabət imkanlarını genişləndirmək kimi vəzifələr qoyub. Sənayedə qeyri-neft sektorunun payının artırılması və iqtisadi diversifikasiya hazırda Azərbaycan üçün prioritet təşkil edir.

Cənab Prezident İlham Əliyev tərəfindən iqtisadiyyatın bütün sahələrində, eləcə də sənaye və ticarət sahələrində çevik islahatlar aparılmaqdadır. Ölkə rəhbəri tərəfindən qeyri-neft ixracının stimullaşdırılması ilə bağlı qoyulmuş vəzifələrin icrası xarici ölkələrlə ticarət əlaqələrində texniki maneələrin aradan qaldırılmasını, təhlükəsiz və keyfiyyətli, yüksək texnologiyalı və innovativ məhsulların istehsalını, istehsalat və xidmət göstərən müəssisələrdə müasir keyfiyyət idarəetmə sistemlərinin tətbiq edilməsini tələb edir.

Keyfiyyət infrastrukturu sahələrində aparılmış mühüm islahatlardan biri "Standartlaşdırma, metrologiya, akkreditasiya və patent hüquqlu obyektlərinin mühafizəsi sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli 1234 nömrəli Fərmanıdır. Fərmanın icrası ilə əlaqədar komitə tərəfindən 4 publik hüquqi şəxs təsis edilib. Bunlar standartların hazırlanmasını, tətbiqini, bu sahədə beynəlxalq təşkilatlarda təmsilçiliyi, habelə standartların tətbiqi ilə bağlı əlaqəli xidmətləri həyata keçirən "Azərbaycan Standartlaşdırma İnstitutu", dövlət kəmiyyət vahidləri etalonlarının əldə olunmasını, qorunub saxlanılmasını və dövlət etalonlarından kəmiyyət vahidlərinin ötürülməsini təmin edən "Azərbaycan Metrologiya İnstitutu", ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəricilər barəsində daxil olmuş iddia sənədlərinin ekspertizasını, onların qeydiyyatını, reyestrini və müvafiq sahədə müqavilələrin qeydiyyatını aparan, mühafizə sənədləri və şəhadətnamələr verən, məlumatların dərcini həyata keçirən, patent müvəkkillərinin attestasiyasını, qeydiyyatını aparan, habelə ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəricilərin hüquqi mühafizəsindən irəli gələn digər məsələləri həyata keçirən "Patent və Əmtəə Nişanları Mərkəzi", akkreditasiya üzrə prinsip və qaydalara riayət edilməsini, uyğunluğun qiymətləndirilməsi (təsdiqi) qurumlarının akkreditasiyasını və bu sahədə beynəlxalq təşkilatlarda təmsilçiliyin həyata keçirilməsini təmin edən "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsləridir. Bundan başqa "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanunlarının yeni layihələri aidiyyəti qurumlarla razılaşdırılaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilib. Qanun layihələrində məhsulların təhlükəsizlik göstəricilərinə, o cümlədən məhsullarla əlaqəli proseslərə, saxlanmaya, qablaşdırmaya, etiketləməyə və terminologiyaya dair tələblərin texniki reqlamentlərlə, məhsulların keyfiyyət göstəricilərinə dair tələblərin isə standartlarla



müəyyən olunması, texniki reqlamentlərin icrasının sahibkarlar üçün məcburi, məhsulların keyfiyyətinə dair tələbləri ehtiva edən standartların icrasının isə könüllü xarakter daşıması, məhsulların texniki reqlamentlərə uyğunluğunun qiymətləndirilməsinin onların risk qrupları üzrə təsnifatından asılı olaraq həyata keçirilməsi və yalnız yüksək risk qrupuna aid məhsulların sertifikatlaşdırılmasının məcburi olması ilə bağlı müddəalar öz əksini tapıb.

Cənab Prezident tərəfindən təsdiqlənmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat üzrə Strateji Yol Xəritəsi"ndə əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolunun daha da gücləndirilməsi prioritet məsələ olaraq qeyd olunub. Bunu nəzərə alaraq komitə öz fəaliyyətində texniki tənzimləmə və milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğun formalaşdırılmasını, onların biznes mühitinə dəstək istiqamətində tətbiq edilməsini hədəfləyir.

Bütün bunlar ölkənin keyfiyyət infrastrukturunun daha da təkmilləşdirilməsini, beynəlxalq təcrübəyə uyğunlaşdırılmasını təmin edəcək.

***- Azərbaycanda istehsal olunan məhsulların xarici bazarlara çıxışının təmin olunması istiqamətində komitənin xarici əlaqələri haqqında nə deyə bilərsiniz?***

- Cənab Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Azərbaycanda istehsal olunan məhsulların xarici bazarlara çıxışının təmin olunması, yerli qeyri-neft məhsullarının ixrac potensialının genişləndirilməsi, ticarətdə texniki maneələrin aradan qaldırılması və keyfiyyət infrastrukturunun beynəlxalq tanınması istiqamətində müvafiq tədbirlər görülməkdədir. Bu tədbirlərin davamı olaraq komitənin nümayəndə heyətinin cari ilin may ayında Çin Xalq Respublikasının Pekin şəhərinə səfərini qeyd etmək olar. Səfər zamanı Azərbaycan və Çin arasında "Texniki tənzimləmə, metrologiya, standartlaşdırma və uyğunluğun qiymətləndirilməsi sahələrində Anlaşma Memorandumu" imzalanıb. Bu sənəd iki ölkə arasında ticarətdə texniki maneələri aradan qaldırmaq və iqtisadi əlaqələri gücləndirmək məqsədi daşıyır. Sənədə əsasən komitə Çinin Keyfiyyətə Nəzarət, Təftiş və Karantin Baş Administrasiyası ilə texniki tənzimləmə, metrologiya, standartlaşdırma və uyğunluğun qiymətləndirilməsi sahələrində əməkdaşlığı inkişaf etdirəcək, Azərbaycan məhsullarının Çin bazarına maneəsiz ixrac edilməsi məqsədilə müvafiq işlər görüləcək. Belə ki, razılaşmaya əsasən Azərbaycanla Çin arasında texniki tənzimləmə, metrologiya, standartlaşdırma və uyğunluğun qiymətləndirilməsi də daxil olmaqla, Milli Keyfiyyət İnfrastrukturu sahələrində texniki əməkdaşlığın təmin edilməsi, uyğunluğun qiymətləndirilməsi və metrologiya üzrə regional və beynəlxalq orqanlar tərəfindən keçirilən layihələrdə və tədbirlərdə qarşılıqlı əməkdaşlıq, keyfiyyət infrastrukturu sahələrində biliklərin artırılması məqsədi ilə birgə təlim proqramları, nümayəndə heyətləri və mütəxəssislərin mübadiləsi, normativ sənədlərin, milli standartların kataloqlarının, normaların və reqlamentlərin, sertifikatlaşdırma orqanları barədə ümumi məlumatın və nəşrlərin, məcburi sertifikatlaşdırılan məhsulların kataloqlarının, təlim proqramları və mütəxəssislərin ixtisaslarının artırılması ilə bağlı materialların və məlumatların mübadiləsi, sertifikatların qarşılıqlı tanınması üzrə əməkdaşlıq ediləcək. Bundan başqa Çinin Keyfiyyətə Nəzarət, Təftiş və Karantin Baş Administrasiyasının nazir müavini U Çinxay arasında keçirilən görüşdə ölkəmizdə istehsal olunan ekoloji təmiz kənd təsərrüfatı məhsullarının Çinə ixracı və bu istiqamətdə keyfiyyət infrastrukturu sahələrinin qarşılıqlı tanınmasına nail olmaqla bağlı razılıq əldə edilib. Qarşılıqlı anlaşmaya əsasən Çin tərəfi Azərbaycanda istehsal olunan məhsullara verilmiş sertifikatları tanıyacaq, akkreditasiya olunmuş sertifikatlaşdırma orqanları ilə əməkdaşlığı gücləndirəcək. Bundan başqa Çin akkreditasiya sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlara üzv olmaqla bağlı Azərbaycana öz dəstəyini göstərəcək.

Bundan başqa cari ilin may ayında komitənin nümayəndə heyəti Sloveniyanın Bled şəhərində Avropa Akkreditasiya Təşkilatının (EA) Baş Assambleyasında iştirak edib. Tədbir çərçivəsində Azərbaycanın nümayəndə heyəti ilə Latviya, Belarus, Türkiyə və Moldova nümayəndə heyətləri arasında görüşlər keçirilib, akkreditasiya sahəsində əməkdaşlığın genişləndirilməsi və Azərbaycan Akkreditasiya Mərkəzinin təşkilata üzvlüyünün dəstəklənməsi ilə bağlı razılıq əldə olunub. EA-nın vitse-prezidenti İqnasio Pina və aparatının rəhbəri Martine Blum ilə görüşdə təşkilata üzvlüklə bağlı ilin əvvəlində Azərbaycan Akkreditasiya Mərkəzi tərəfindən təqdim olunmuş müraciət müzakirə edilib. Qeyd edim ki, müraciət EA katibliyi tərəfindən yüksək qiymətləndirilib və noyabr ayında Berlin şəhərində keçiriləcək Baş Assambleyanın növbəti iclası zamanı Azərbaycanın müvafiq qurumunun həmin təşkilata assosiativ üzv olaraq qəbulunun rəsmiləşdirilməsi barədə razılıq əldə olunub.

2017-ci ilin 30 may - 1 iyun tarixlərində keyfiyyət infrastrukturu sahəsində daha bir beynəlxalq tədbir keçirilib. Belə ki, Bakıda MDB-nin Standartlaşdırma, Metrologiya və Sertifikatlaşdırma üzrə Dövlətlərarası Şurasının yubiley iclası olub. Tədbirdə 14 ölkə, 10 beynəlxalq və regional təşkilatdan 100-ədək qonaq iştirak edib. 3 gün ərzində keçirilən tədbirdə MDB ölkələri arasında ticari əlaqələrin genişləndirilməsi, ticarətdə texniki maneələrin aradan qaldırılması, texniki tənzimləmə, standartlaşdırma, akkreditasiya sahələrində qarşılıqlı tanınmanın təminatının gücləndirilməsi və digər mövzularda müzakirələr aparılıb. İclasda keyfiyyət infrastrukturu sahəsində Şura tərəfindən əldə edilmiş nailiyyətlərlə yanaşı, ölkə bazarlarında üzv ölkələrin məhsullarının çıxarılmasında hələ də texniki maneələrin olması məsələsi də qabardılıb. Bunu aradan qaldırmaq üçün yeni Saziş layihəsi hazırlanıb ki, bu sənəddə üzv ölkələrdə uyğunluğun qiymətləndirilməsi prosedurlarının, ixrac məhsullara verilmiş sertifikatların tanınması, milli akkreditasiya sistemləri çərçivəsində qayda və prosedurların ekvivalentliyinin tətbiqi və vahid ölçmələrin təminatı sahəsində razılaşdırılmış siyasətin aparılması əks olunub.

Tədbir çərçivəsində həmçinin Azərbaycan Akkreditasiya Mərkəzi ilə Qazaxıstanın Milli Akkreditasiya Mərkəzi, Moldovanın Akkreditasiya üzrə Milli Mərkəzi və Belarusun Akkreditasiya Dövlət Mərkəzi arasında akkreditasiya sahəsində qarşılıqlı əməkdaşlıqla bağlı ikitərəfli Anlaşma Memorandumları imzalanıb.

Sentyabrın 20-22-sində Almaniyanın Berlin şəhərində Beynəlxalq Standartlaşdırma Təşkilatının (İSO) Baş Assambleyasının 40-cı iclasında iştirak etmək üçün etdiyimiz səfər də məhsuldar görüşlərlə yadda qalıb. Səfər çərçivəsində İSO-nun Baş katibi Serjio Muxika ilə görüşdə Azərbaycanda standartlaşdırma sahəsində aparılan islahatlar, keyfiyyət infrastrukturu sahələrinin beynəlxalq tanınmasına nail olmaq üçün görülmüş tədbirlər haqqında məlumat verilib. İSO-nun Baş katibi Azərbaycanda qeyri-neft sektorunun inkişafı, yerli məhsulların ixrac potensialının yüksəldilməsi istiqamətində həyata keçirilən islahatları, bu çərçivədə keyfiyyət infrastrukturu sahələrinə xüsusi diqqəti yüksək qiymətləndirib. "Standartlaşdırma, metrologiya, akkreditasiya və patent hüququ obyektlərinin mühafizəsi sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli 1234 nömrəli Fərmanına əsasən təsis edilmiş "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxsin milli standartlaşdırma qurumu kimi İSO-da üzvlüyünün təmin edilməsi ilə bağlı müraciət razılıqla qarşılanıb, yeni yaradılmış qurumun inkişafına dəstək mexanizmləri müzakirə olunub.

Avropa Standartlaşdırma Təşkilatının (CEN-CENELEC) Baş direktoru Yelena Santyaqo Sidlə keçirilmiş görüşdə standartlaşdırma üzrə milli qurumun təşkilatda "tərəfdaş standartlaşdırma orqanı" statusunda təmsil olunması məsələsi müzakirə edilib.

Almaniya Standartlar İnstitutunun (DİN) Baş katibi Kristof Vinterxalterlə keçirilmiş görüşdə standartlaşdırma sahəsində iki ölkə arasında mövcud münasibətlərin daha da inkişaf etdirilməsi qərara alınıb. Danışıqların nəticəsində Almaniya Standartlar İnstitutu ilə Azərbaycan Standartlaşdırma İnstitutu arasında əməkdaşlığa dair Memorandum imzalanıb. Sənədə əsasən qurumlar standartlaşdırma sahəsində texniki əməkdaşlıq, innovasiyaların tətbiqi və ekspertlərin qarşılıqlı mübadiləsi və treninqlərin təşkili kimi sahələrdə intensiv əməkdaşlıq edəcəklər.

Səfər çərçivəsində Türkiyə, Rusiya, Belarus, Qazaxıstan və digər ölkələrin standartlaşdırma üzrə milli orqanlarının rəhbərləri ilə keçirilmiş görüşlərdə qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişaf perspektivləri müzakirə edilib. Sınaq və Materiallar üzrə Amerika Cəmiyyətinin (ASTM) prezidenti Katrin Morqanla keçirilmiş görüşdə dünyada tanınmış standartların ölkəmizdə tətbiqi, Azərbaycan Standartlaşdırma İnstitutu ilə birgə tədbirlərin təşkili və mütəxəssislərin hazırlığı məsələləri müzakirə edilib.

***- 2-4 oktyabr tarixlərində İsveçrənin Cenevrə şəhərində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Üzv Dövlətləri Assambleyasının 57-ci iclasında Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi iştirak etmisiniz. İclas çərçivəsində uğurlu görüşləriniz olub. Bu haqda daha ətraflı məlumat verməyinizi xahiş edirik.***

- Azərbaycan Respublikası 1995-ci ildən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının tamhüquqlu üzvüdür. Ümumiyyətlə BMT-nin ixtisaslaşmış qurumu olan ÜƏMT ilə komitənin sıx əməkdaşlığı mövcuddur. Bu müddət ərzində ölkəmiz ÜƏMT-nin Bern İttifaqı, Budapeşt

# Azərbaycanda qeyri-neft ixrac potensialının genişləndirilməsində keyfiyyət infrastrukturunun rolu əhəmiyyətlidir

*Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənovun yap.org.az-a müsahibəsi*

Sazişi, Haaqa Sazişi, Lokarno Sazişi, Madrid Sazişi (Nişanlar), Madrid Protokolu, Nayrobi Sazişi, Nis Sazişi, Paris Konvensiyası, Patent Əməkdaşlığı Sazişi, Fonoqramlar Konvensiyası, Roma Konvensiyası, Strasburq Sazişi, UPOV Konvensiyası, ÜƏMT Konvensiyası, ÜƏMT Əməkdaşlıq Sazişi, ÜƏMT-nin İfalar və Fonoqramlar Sazişinə qoşulub. "Əməkdaşlıq Proqramı" təsdiq edilib, 10 ölkə ilə ikitərəfli Saziş imzalanıb.

ÜƏMT-nin tövsiyələrinə uyğun olaraq əqli mülkiyyət hüquqlarının idarəolunması sisteminin hazırlanması məqsədilə hələ 2011-ci ildə Koreya Əqli Mülkiyyət Ofisi (KİPO) ilə müzakirələr aparılıb. Müzakirələrin nəticəsi olaraq Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) ilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi arasında "Azərbaycanda əqli mülkiyyət hüquqlarının avtomatlaşdırılması" Qrant Razılaşması imzalanıb, KOİCA-nın dəstəyi və ÜƏMT-nin iştirakı ilə sistemin tam avtomatlaşdırılması təmin edilib. Bu layihə Azərbaycanda qurulan "Elektron Hökumət" layihəsinə də bir töhfə kimi qiymətləndirilir.

2014-cü ilin 14 may tarixində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş direktoru Frensis Qarrinin Bakıya səfəri zamanı Azərbaycan Respublikası Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. "2014-2017-ci illər üzrə Fəaliyyət Planı" qeyd olunan Anlaşma Memorandumu əsasında hazırlanıb. Bu Fəaliyyət Planı çərçivəsində bir sıra tədbirlər uğurla icra olunub.

Komitə və ÜƏMT-nin birgə təşkilatçılığı ilə əqli mülkiyyət sahəsində müxtəlif mövzularda yerli, regional və beynəlxalq seminarlar keçirilib. Bundan başqa, komitə ÜƏMT-nin Akademiyası ilə danışıqlara başlayıb və ilkin olaraq komitəyə ehtiyaclarin təhlili missiyası üzrə mütəxəssislərlə görüşlər olub. Bu missiya çərçivəsində komitəyə sənaye mülkiyyəti hüquqları üzrə Təlim Mərkəzinin yaradılması və fəaliyyətinə dəstək məsələləri öz həllini tapacaq. Komitənin ekspertləri ÜƏMT-nin Baş Assambleyalarında, həmçinin ÜƏMT və ÜTT-nin birgə seminar və təlimlərində, onlayn təhsil proqramlarında mütəmadi olaraq iştirak edirlər.

Cenevrədə bu dəfəki Assambleyanın iclasında çıxışımda da təşkilatla əməkdaşlığın, birgə həyata keçirilən layihələrin əhəmiyyəti qeyd edilib. Ölkəmizdə əqli mülkiyyət hüquqlarının mühafizəsi sahəsində idarəetmənin beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində həyata keçirilən islahatlar, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli 1234 nömrəli Fərmanına əsasən komitə tərəfindən təsis edilmiş "Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxs haqqında məlumat verilib.

Təşkilatın baş direktoru Frensis Qarri ilə görüşdə milli patent sisteminin inkişafında ÜƏMT ilə qarşılıqlı fəaliyyətin müsbət nəticələri nəzərdən keçirilib, birgə layihələrin davam etdirilməsinə maraq ifadə olunub. F.Qarri Azərbaycan Respublikası Hökuməti ilə ÜƏMT arasında imzalanmış Anlaşma Memorandumunun 2014-2017-ci illəri əhatə edən fəaliyyət planının icrasının müvəffəqiyyətlə həyata keçirildiyini, gələcəkdə də təşkilatın Azərbaycanın əqli mülkiyyət hüquqlarının təminatı sisteminə dəstəyinin davam etdiriləcəyini bir daha vurğulayıb. Təşkilatın Bakıda xarici ofisinin təsis olunması və 2018-ci ildə yeni fəaliyyət planı layihəsinin imzalanmasında maraqlı olduğumuzu bildirib və baş direktoru Azərbaycana dəvət etdim. Dəvəti məmnuniyyətlə qəbul edən F.Qarri 2018-ci ilin ilk yarısında ölkəmizə səfər edəcəyini qeyd edib.

Eyni zamanda nümayəndə heyətinin üzvləri ÜƏMT-nin bir neçə departamentində işçi görüşlər keçirib, birgə gələcək fəaliyyət, maraq kəsb edən Sazişlərə qoşulmanın faydalılığı və məqsədəuyğunluğunu müzakirə ediblər. Bir sıra ölkənin patent qurumlarının rəhbərləri ilə görüşən nümayəndə heyətinin üzvləri ikitərəfli əməkdaşlıq perspektivlərini nəzərdən keçirib, ÜƏMT-nin Bakıda xarici ofisinin təsis edilməsinə dəstəklə bağlı danışıqlar aparıblar.

Səfər çərçivəsində Gürcüstanın Milli Əqli Mülkiyyət Mərkəzi ilə Azərbaycan Patent və Əmtəə Nişanları Mərkəzi arasında Əməkdaşlıq Memorandumu imzalanıb.

***- Dediyiniz kimi komitənin fəaliyyətinin beynəlxalq tələblərə uyğun formalaşdırılması əsas hədəflərinizdən biridir. Bu sahədə Avropa İttifaqının müxtəlif layihələrinin uğurlu icraçısı kimi komitənin adı çəkilir. Ümumiyyətlə bu əməkdaşlıqlar hansı perspektivlər vəd edir?***

- Artıq 9 ildir ki, Avropa İttifaqının "Tvinninq" layihələrini icra edərək müəyyən nəticələr əldə edilib. "Standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sisteminin gücləndirilməsi. (2008-2010-ci illər)" layihəsinin icrası nəticəsində Avropa İttifaqı və Ümumdünya Ticarət Təşkilatının Ticarətdə Texniki Maneələr Sazişinin tələblərinə və qaydalarına uyğun olan keyfiyyət infrastrukturu ilə bağlı qanunvericilik aktları hazırlanmış, etalon laboratoriyaları yaradılıb.

Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması, ticarətdə texniki maneələrin aradan qaldırılması, yerli istehsalçıların xaricə ixrac potensialının artırılması məqsədilə "Texniki tənzimləmə haqqında" Qanun layihəsi hazırlanıb. Qanun layihəsi hazırlanarkən Ümumdünya Ticarət Təşkilatının Ticarətdə Texniki Maneələr haqqında Sazişinin texniki tənzimləməyə və uyğunluğun qiymətləndirilməsi fəaliyyətinə dair tələbləri, Avropa İttifaqının müvafiq qanunvericilik aktları nəzərə alınıb. Qanun layihəsi Avropa İttifaqının "Tvinninq" layihəsi çərçivəsində beynəlxalq ekspertlərin iştirakı ilə təkmilləşdirilib. Daha sonra Qanun layihəsi aidiyyəti dövlət orqanları ilə razılaşdırılmaqla Nazirlər Kabinetinə təqdim olunub. Az öncə qeyd etdiyim kimi, qeyd olunan sənədin qəbul olunması Azərbaycan Respublikasında istehsal olunan məhsulların beynəlxalq bazara və Avropa İttifaqının iqtisadi məkanına sərbəst daxil olması imkanlarını artıracaqdır. Həmçinin beynəlxalq təcrübəyə uyğun "Standartlaşdırma haqqında" yeni Qanun layihəsi "Tvinninq" layihəsi çərçivəsində beynəlxalq ekspertlərin iştirakı ilə təkmilləşdirilib, aidiyyəti dövlət orqanları ilə razılaşdırılmaqla Nazirlər Kabinetinə təqdim olunub.

Bundan başqa beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu 2013-cü il 13 iyun tarixində, "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu isə 2014-cü il 30 may tarixində Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilib, cənab Prezidentin Fərmanları ilə təsdiq edilib.

2013-2015-ci illəri əhatə edən "Azərbaycanda müasir standartlaşdırma və texniki tənzimləmə sisteminin inkişafına dəstək" adlı növbəti "Tvinninq" layihəsində də keyfiyyət infrastrukturu sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, texniki komitələrin fəaliyyətinin genişləndirilməsi və onların beynəlxalq təşkilatların işinə daha yaxından cəlb olunması, dövlət standartlar fondu əsasında məlumat bazasının yaradılması və s. komponentlər öz əksini tapıb.

Cari ildən Avropa İttifaqının "Azərbaycanda metrologiya sisteminin gücləndirilməsi" adlı yeni "Tvinninq" layihəsinə başlanılıb və hazırda da həyata keçirilməkdədir. Layihənin ümumi məqsədi bu sahədəki standartlara, normalara və proseslərə dair Avropa İttifaqı və beynəlxalq təcrübəyə uyğun olaraq, ölçmələrin ötürülməsi sisteminin inkişafı vasitəsi ilə yerli sənayeyə, ixrac yönümlü istehsala beynəlxalq tanınmaya malik metroloji xidmətin təmin olunmasıdır.

Bundan başqa Avropa İttifaqının "TAIEX" aləti vasitəsi ilə həyata keçirilən layihələr xüsusilə standartlaşdırma və uyğunluğun qiymətləndirilməsi sahəsində Avropa təcrübəsinin öyrənilməsi və ondan faydalanmaq cəhətdən çox uğurlu olub.

Cənab Prezident dövlət orqanları qarşısında ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunmaq, dünya bazarına çıxmaq və perspektivdə onun fəal subyektinə və iştirakçısına çevrilmək, müasir beynəlxalq iqtisadi münasibətlər sisteminin imkanlarından daha geniş və səmərəli istifadə etmək kimi mühüm vəzifələr qoyub. Dünyada baş verən iqtisadi və siyasi çağırışlara adekvat cavab verilməsi, Azərbaycanın postneft erasına uğurlu addım atması üçün iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyinin artırılması, yeni və müasir yanaşmalar əsasında ixracyönümlü mal, məhsul və xidmətlərin dünya bazarlarına çıxarılması ilə bağlı struktur islahatlarına başlanılıb. Sadalanan məqamlar sistemli yanaşma tələb edir ki, bu da öz növbəsində Azərbaycan iqtisadiyyatının real sektorunun inkişafı üçün müvafiq islahatları zəruri edir. Beynəlxalq təcrübədən yararlanmaq qarşıya qoyulan bütün bu vəzifələrə nail olmaq üçün vasitədir. Bu müstəvidə texniki tənzimləmə və standartlaşdırma sahəsində Ümumdünya Ticarət Təşkilatı (ÜTT), Beynəlxalq Standartlaşdırma Təşkilatı (İSO), Avropa Standartlaşdırma Komitəsi (CEN), BMT-nin Kənd Təsərrüfatı Təşkilatının Codex Alimentarius Komissiyası, İslam Ölkələrinin Standart və Metrologiya İnstitutu (SMİİC), Regionlararası Standartlaşdırma Birliyi (BASB), Beynəlxalq Elektrotexnika Komissiyası (İEC) və MDB-nin Standartlaşdırma, Metrologiya və Sertifikatlaşdırma üzrə Dövlətlərarası Şura çərçivəsində əməkdaşlığı qeyd etmək olar. BMT-nin ixtisaslaşmış qurumu Ümumdünya Əqli Mülkiyyət Təşkilatı ilə sıx əməkdaşlıq edilir və 2014-cü ilin 14 may tarixində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) baş direktoru Frensis Qarrinin Bakıya səfəri zamanı Azərbaycan Respublikası Hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. 2014-2017-ci illər üzrə Fəaliyyət Planı qeyd olunan Anlaşma Memorandumu əsasında hazırlanıb.

BMT-nin digər ixtisaslaşmış qurumları ilə əməkdaşlıq edilir, BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO), BMT-nin Avropa İqtisadi Komissiyası (UNECE), BMT-nin İnkişaf Çərçivəsi Yardımı (UNIDAF) təşkilatlarının təlimlərində, görüşlərində və seminarlarında iştirak təmin edilir. Xatırladım ki, Azərbaycan Respublikası və BMT-nin Sənaye İnkişafı Təşkilatı arasında 2014-2018-ci illər üzrə əməkdaşlıq üzrə çərçivə proqramı qəbul olunub.

Azərbaycan 2003-cü ildən İSO-nun tamhüquqlu üzvüdür və hazırda onun bir sıra Texniki Komitələrində iştirak edilir. Nazirlər Kabinetinin Qərarı ilə komitə 2011-ci ildən Kodeks Alimentarius Komissiyasının milli əlaqələndiricisi təyin olunmuşdur.

Azərbaycan Akkreditasiya Mərkəzi 2012-ci ilin oktyabr ayında Laboratoriya Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatına (ILAC) müxbir üzv qismində qoşulub. Azərbaycan Metrologiya İnstitutu 2015-ci ilin yanvar ayından Çəkilər və Ölçülər üzrə Beynəlxalq Konfransa (CGPM) assosiativ üzv olub və Çəkilər və Ölçülər üzrə Beynəlxalq Komitənin (CİPM) Qarşılıqlı Tanınma Razılaşmasını imzalayıb. Həmçinin 2015-ci ilin yanvarından Qanunverici Metrologiya üzrə Beynəlxalq Təşkilata müxbir üzv qismində qoşulmuşuq.

2011-ci ildən Avropa Standartlaşdırma Komitəsində (CEN) assosiativ üzv kimi təmsil olunuruq və bu təşkilat ilə sıx əlaqələr mövcuddur. Biz mütəmadi olaraq CEN-in Baş Assambleyalarında iştirak edir, həmçinin milli standartların Avropa (EN) standartları ilə harmonizə edilməsi üçün müvafiq tədbirlər görürük.

Bundan başqa, Avrasiya Ölkələrinin Dövlət Metrologiya Qurumlarının Əməkdaşlığı Təşkilatı ilə (KOOMET), Almaniyanın Milli Metrologiya İnstitutu ilə (PTB), Beynəlxalq Atom Enerjisi Agentliyi (İAEA), Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA), Avropa İttifaqının İNOGATE Proqramı, Beynəlxalq əlaqələr və İnkişaf üzrə İsveçrə İnstitutu (CABİR), İqtisadi Məsələlər üzrə İsveçrə Dövlət Katibliyi (SECO), ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD), Oxfam və digər donor təşkilatlarla ortaq layihələrin icrası inkişaf etmiş ölkələrin bu sahədəki fəaliyyətinə dair praktikası ilə yaxından tanış olmaq və ölkədə müvafiq sahədə tətbiqi baxımından çox əhəmiyyətlidir.

Bütün bunlar Azərbaycan Respublikasının keyfiyyət infrastrukturu sahəsində və elmi-texniki əməkdaşlığın həyata keçirilməsində xarici tərəfdaşlar qarşısında möhkəm etibar qazanması, yerli sahibkarların öz məhsullarını maneəsiz və operativ şəkildə xaricə çıxarması üçün vacibdir. Bir sözlə beynəlxalq təşkilatlarda üzv qismində təmsil olunmaqla dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətləndirilməsinə yaxşı imkan yaranır. Misal olaraq 28 yanvar 2015-ci il tarixində Azərbaycan Metrologiya İnstitutu tərəfindən imzalanmış "Milli etalonların və milli metrologiya müəssisələri tərəfindən verilən ölçmə və kalibrləmə sertifikatlarının qarşılıqlı tanınması haqqında" Beynəlxalq Sazişi (CIPM MRA) göstərmək olar. Bu beynəlxalq Sazişin imzalanması metrologiya sahəsində bir sıra nailiyyətlərin əldə edilməsinə imkan verəcəkdir:

- Saxlanılan milli etalonların digər ölkələrin milli etalonları ilə ekvivalentlik dərəcəsinin müəyyən edilməsinə;
- Azərbaycan Respublikasının milli etalonlarının beynəlxalq tutuşdurmalarda iştirak etməsi və onların beynəlxalq səviyyədə tanınmasına;
- Kalibrləmə və ölçmə haqqında sertifikatların beynəlxalq miqyasda tanınmasına;
- Yerli müəssisələrdə məhsul istehsalının keyfiyyət göstəricilərinə nəzarət üçün aparılan ölçmələrin nəticələrinin dəqiqliyini və etibarlılığını təmin etməklə, həmin məhsulların keyfiyyətinin regional və beynəlxalq səviyyədə etimadın yaradılmasına;
- Ümumdünya Ticarət Təşkilatının tələblərinin yerinə yetirilməsinə və ticarətdə texniki maneələrin aradan qaldırılmasına imkan yaradılmasına və s.

**Ardı Səh. 10**

# Azərbaycanda qeyri-neft ixrac potensialının genişləndirilməsində keyfiyyət infrastrukturunun rolu əhəmiyyətlidir

*Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənovun yap.org.az-a müsahibəsi*

Əvvəli Səh. 9

***- Ramiz müəllim, yüksək xidmət və məhsulların xarici bazarlara çıxışında uyğunluğun qiymətləndirilməsi sahəsinin rolu böyükdür. Yerli sertifikatların, sınaq protokollarının, kalibrləmə attestatlarının xaricdə tanınması üçün daha hansı işlər görülməlidir?***

- Bununla bağlı bildirmək istəyirəm ki, uyğunluğun qiymətləndirilməsi qurumlarının akkreditasiyasını həyata keçirən Azərbaycan Akkreditasiya Mərkəzinin Laboratoriya Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlığı təşkilatına (İLAC), Akkreditasiya üzrə Beynəlxalq Foruma (İAF) tam hüquqlu və Akkreditasiya üzrə Avropa Əməkdaşlığı təşkilatına (EA) isə assosiativ üzv olması vacib şərtdir. Bunun üçün tərəfimizdən Milli akkreditasiya qurumunun fəaliyyətinin beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində bir çox işlər aparılıb. Qurumun fəaliyyətnin AZS İSO/OEC 17011 standartının tələblərinə uyğunlaşdırılması məqsədi ilə daxili idarəetmə sisteminin yaradılması və bu sahədə sənədlərin hazırlanması üzrə işlər aparılıb, uyğunluğun qiymətləndirilməsi qurumlarına olan tələbləri müəyyən edən beynəlxalq standartlar milli standart kimi qəbul edilib, Akkreditasiya üzrə Məsləhətçi Şura və Appelyasiya Şurası yaradılıb, xidmətin əməkdaşlarının və cəlb edilən ekspertlərin səriştəliliyinin artırılması üçün yerli və xarici mütəxəssislərin iştirakı ilə müvafiq təlim və seminarlar keçirilib.

Artıq iyun ayından "Azərbaycan Respublikasının Milli Akkreditasiya Sisteminin gücləndirilməsi" adlı yeni 2 illik "Tvininq" layihəsinə start verilib. Bu layihə çərçivəsində akkreditasiya sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, institusional islahatların aparılması, beynəlxalq təşkilatlarla kommunikasiyanın gücləndirilməsi, personalın bilik və bacarıqlarının artırılması kimi bir sıra vacib məsələlər həllini tapacaq. Layihənin məqsədi Almaniya, İtaliya və Latviya kimi qabaqcıl keyfiyyət infrastrukturu olan ölkələrin təcrübəsindən bəhrələnməklə laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatı (İLAC), Beynəlxalq Akkreditasiya Forumu (İAF) və Avropa Əməkdaşlıq Təşkilatının (EA) tələblərinə uyğun olaraq Azərbaycan Akkreditasiya Mərkəzinin potensialını gücləndirmək, Azərbaycanda məhsulun, xidmətin keyfiyyətini yüksəltməyə və Avropa tələblərinə uyğun olan akkreditasiya sistemi vasitəsilə dünya bazarına çıxış imkanı əldə etmək yolu ilə Azərbaycanın iqtisadi inkişafına kömək etməkdir. 1 iyul 2017-ci il tarixindən başlayaraq 24 ay davam edəcək layihə nəticəsində Azərbaycanın Avropa Akkreditasiya Təşkilatına (EA) tam hüquqlu üzvlüyünün təmin edilməsi, qarşılıqlı tanınma haqqında Sazişin imzalanacağı, həmçinin milli akkreditasiya sisteminin daha da təkmilləşdirilməsi, institutsional islahatların aparılması, beynəlxalq təşkilatlarla əlaqələrin gücləndirilməsi, personalın bilik və bacarıqlarının artırılması kimi vacib məsələlərin öz həllini tapacağı gözlənilir. Uyğunluğun qiymətləndirilməsi üzrə akkreditasiya sahəsində ən müasir təcrübənin tətbiqində maraqlıyıq. Qeyd edilənlərdən əlavə Azərbaycan Akkreditasiya Mərkəzinin dəstəyi ilə milli sertifikatlaşdırma orqanları ilə beynəlxalq səviyyədə tanınan xarici sertifikatlaşdırma orqanları arasında əməkdaşlıq sazişi imzalanması istiqamətində işlər aparılmaqdadır. Burada əsas məqsəd ixrac ediləcək qeyri-neft məhsullarını, o cümlədən ərzaq məhsulları üçün orada tanınan sertifikatlaşmanın əlçatımlılığını, Avropa Birliyinin tələblərinə uyğunlaşdıraraq maneəsiz xarici bazara çıxışının təmin edilməsidir.

Hələ 2013-cü ildə komitənin qida laboratoriyası Almaniya Akkreditasiya Qurumu (DAkkS) tərəfindən akkreditasiya olunub. DakkS mütəxəssisləri sınaq laboratoriyasında apardıqları auditin nəticəsində qurulmuş infrastruktur, tətbiq edilən müasir sınaq avadanlıqları, səriştəli kadr potensialı və sınaqların düzgün metodlarla aparılması xüsusi qiymətləndirib, bütün növ ərzaq məhsullarının sınağının İSO/İEC 17025:2005 beynəlxalq standartı əsasında həyata keçirildiyi barədə qərar qəbul edib. Bundan başqa DakkS laboratoriyada bütün növ ərzaq məhsullarının mikrobioloji sınağını, o cümlədən meyvə şirələrində ağır metallar və titrlənən turşuların təyini, qablaşdırılmış içməli sularda kimyəvi analizləri yüksək qiymətləndirib, adıçəkilən sahələr üzrə də laboratoriyanı akkreditasiya edib. Hazırda laboratoriyanın akkreditasiya sahəsinin genişləndirilməsi ilə bağlı işlər həyata keçirirk. Deyim ki, nüfuzlu Almaniya Akkreditasiya Qurumu tərəfindən Azərbaycan Respublikasında qurulmuş müasir sınaq laboratoriyasının akkreditasiyası ölkə sahibkarlığının inkişafı istiqamətində qazanılmış növbəti müvəffəqiyyət kimi qiymətləndirilməkdədir.

Laboratoriyanın sınaq protokollarının xaricdə tanınması ilə yerli müəssisələrin istehsal etdikləri ərzaq məhsullarının Avropa Birliyi ölkələrinə ixracının genişlənməsi, yerli sahibkarların xarici bazarlarda özlərinə layiqli yer tutmaları üçün əlverişli şəraitin yaranması təmin olunur. Amma təbii ki, məqsəd tək bu deyil. Biz istəyirik ki, ölkədə fəaliyyət göstərən uyğunluğu qiymətləndirən bütün orqanların verdiyi sənədlər xaricdə tanınsın, qəbul edilsin. Bu, yerli sahibkarlar üçün ixracyönümlü məhsul istehsalı baxımından əlverişli fürsət olacaq. Çünki burada sertifikatlaşdırılan məhsulla xaricə çıxdıqda artıq sahibkardan əlavə prosedurlar tələb olunmayacaq. Bu həm vaxt, həm də maliyyə itkisinin qarşısını alacaq. Bunun üçün uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiyanın beynəlxalq təşkilatlar tərəfindən tanınmasına nail olmağa çalışırıq.

"Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra bu sahəyə maraq daha da artıb. Komitə 2012-ci ildən sertifikatlaşdırma fəaliyyəti ilə məşğul olmur. "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2012-ci il tarixli, 604 nömrəli Fərmanına əsasən komitənin ərazi sertifikatlaşdırma idarələri ləğv edilib. Sertifikatlaşdırma fəaliyyəti liberallaşıb, bu xidməti göstərə bilən özəl təşkilatlar beynəlxalq təcrübəyə uyğun olaraq akkreditasiyadan keçib və fəaliyyətə başlayıb. Sertifikatlaşdırma, həmçinin sınaq və kalibrləmə xidmətləri göstərən sahibkarların sayının artması da bizi sevindirir. Bu həm də orqanlar arasında xidmətin keyfiyyətinin yüksəldilməsi baxımından rəqabətdir.

***- Standartlaşdırma və texniki tənzimləmə sahəsində fəaliyyətin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə aparılan işlər haqqında məlumat verdiniz. Bəs milli standartların qəbulu prosesi haqqında nə deyə bilərsiniz?***

- Azərbaycanda istehsal olunan məhsulların keyfiyyət və təhlükəsizliyinin təmin edilməsi məqsədilə ölkəmizdə qüvvədə olan standartlar daim təkmilləşdirilərək beynəlxalq, Avropa və qabaqcıl ölkələrin norma və standartlarına uyğunlaşdırılır. Hazırda texniki tənzimləmə və standartlaşdırma üzrə texniki normativ hüquqi aktların dövlət fondunda 20 mindən çox dövlətlərarası və 966 milli standart mövcuddur. Milli standartların 45%-i beynəlxalq və Avropa standartlarına harmonizə edilib. Azərbaycan Respublikasının milli standartları uyğunluğun qiymətləndirilməsi və idarəetmə sistemləri, neft və kimya sənayesi, aqrar və qida sənayesi, tikinti materialları, xidmət sənayesi və digər sahələri əhatə edir.

Azərbaycanda istehsal olunan məhsulların keyfiyyətini, təhlükəsizliyini, rəqabət qabiliyyətini və ixrac potensialını yüksəltmək və standartlaşdırma sahəsini müasir tələblərə uyğunlaşdırmaq məqsədilə müsahibənin əvvəlində dediyim kimi, Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli 1234 nömrəli Fərmanı ilə "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs yaradılıb. Həmin Fərmana əsasən beynəlxalq və regional təşkilatlarda milli standartlaşdırma qurumu kimi Azərbaycan Respublikasının təmsil edilməsi və ölkə ərazisində standartlaşdırma siyasətinin həyata keçirilməsi İnstituta həvalə edilib.

Bundan başqa sənaye məhsullarının rəqabət qabiliyyətinin artırılması, milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması, o cümlədən Avropa İttifaqının direktivləri əsasında milli texniki reqlamentlərin və beynəlxalq standartlar əsasında istinad edilmiş standartların qəbulu məqsədilə "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2018-2025-ci illər üzrə Dövlət Proqramı"nın layihəsi hazırlanıb. Proqramın icrası çərçivəsində Avropa İttifaqının direktivləri əsasında 33 milli texniki reqlamentlərin və beynəlxalq standartlara istinad olunan milli standartların hazırlanması, qəbulu və sahibkarlara təqdim olunması nəzərdə tutulub. Proqramın həyata keçirilməsi sənaye məhsullarının rəqabət qabiliyyətinin artırılmasına, qeyri-neft sektorunun inkişafına təkan verməklə yanaşı, beynəlxalq standartlar əsasında milli standartların hazırlanması və sahibkarlara təqdim olunması prosesi mütəşəkkil şəkildə həyata keçiriləcəkdir.

Milli standartlaşdırma sisteminin işində özəl sektorun daha da aktiv iştirakının təmin edilməsi və ölkədə istehsal olunan məhsulların, göstərilən xidmətlərin rəqabət qabiliyyətinin artırılması məqsədilə Azərbaycanda artıq 13 texniki komitə fəaliyyət göstərir. Bunlar yeyinti və kənd təsərrüfatı məhsulları, informasiya-kommunikasiya texnologiyaları, turizm və yerdəyişmə vasitələrinin xidmətləri, qida məhsulları, metrologiya, akkreditasiya sahəsində standartlaşdırma, ekologiya, tikinti materialları, məmulatları və konstruksiyaları, mebel sənayesi məhsulları, sənaye məhsulları, neft-qaz hasilatı texnologiyası və neft emalı, alternativ və bərpa olunan enerji və enerji səmərəliliyi və yol nəqliyyatı standartlaşdırması sahələrini əhatə edir. Texniki komitələrin işində ölkədə fəaliyyətdə olan özəl şirkətlərin nümayəndələri aktiv iştirak etməklə milli standartlaşdırma sisteminin təkmilləşdirilməsində yaxından iştirak edirlər.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunun artırılması sahəsində əlavə imkanlar yaratmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması haqqında Fərmanın 2.4. bəndinin icrası ilə bağlı istehsal olunan məhsulun sertifikatlaşdırılmasının sadələşdirilmiş qaydada "bir pəncərə" prinsipi əsasında təşkili qarşıya məqsəd qoyulub. Bu məqsədlə "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs tərəfindən kiçik və orta sahibkarlıq subyektləri üçün vahid sertifikatlaşdırma sisteminin yaradılması üçün "bir pəncərə" prinsipi əsasında zəruri tədbirlər görülüb. Hazırda bu sistem üzrə 14 "ABAD"çı məhsulunu sertifikatlaşdırıb.

***- Cənab Prezidentin islahatlar siyasəti çərçivəsində "Made in Azerbaijan" brendinin yaradılması və təşviqi işləri də başlıca yer tutur. Komitə sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahəsində dövlət siyasətini həyata keçirən orqan kimi yerli brendlərin xaricdə mühafizəsi ilə bağlı hansı işləri görür?***

- Ölkə başçısı cənab İlham Əliyevin islahatları çərçivəsində çevik iqtisadi idarəetmənin təşkili, biznes mühitinin yaxşılaşdırılması, investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması sahəsində bu il əhəmiyyətli qərarlar qəbul olunub. Bu sırada atılan addımlardan biri də qeyri-neft məhsulları ixracını stimullaşdırmaq üçün "Made in Azerbaijan" brendinin yaradılması və təşviqi barədə bir neçə sərəncam və fərmanların imzalanmasıdır. Bu gün dünya bazarlarında rəqabətə girəcək məhsullara beynəlxalq qiymətləndirmə şirkətləri tərəfindən sertifikatların verilməsi və patentlərin alınması vacibdir. Lakin bir çox hallarda Azərbaycan şirkətləri bu sahədə problemlərlə qarşılaşırlar. Elə bu problemləri də nəzərə alan cənab Prezident ixracatçıların xarici ölkələrdə məhsula sertifikat alınmasının, habelə, əmtəə nişanlarının Azərbaycanda və xaricdə qeydiyyatına görə dəstək verilməsinin önəmli olduğunu və müvafiq dövlət orqanlarının da bu müstəvidə ixracatçılara dəstək olmasının mühüm olduğunu bildirib. Cənab Prezident dünyada "Made in Azerbaijan" brendinin təbliğ olunmasının vacibliyini qeyd edib. Biz hesab edirik ki, hər hansı bir məhsulun istehsalı ilə məşğul olan sahibkarlar məhsulların ixrac qabiliyyətini nəzərə almalıdırlar. İstehsal olunan məhsul keyfiyyətli, rəqabətədavamlı olmaldır ki, dünya bazarında özünə yer tapa bilsin.

Sahibkarlarla bazara rəqabətqabiliyyətli və keyfiyyətli məhsul çıxarmaları məqsədi ilə mütəmadi olaraq marifləndirici tədbirlər həyata keçirilir, seminarlar təşkil edilir və onlara məsləhətlər verilir.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatı ilə, bir çox ölkələrlə ikitərəfli əməkdaşlıq digər sahələrdə olduğu kimi əqli mülkiyyət hüquqlarının qorunması sahəsində də aparılır. ÜƏMT-nin müvafiq saziş və konvensiyalarında iştirak yerli istehsala, sahibkarlara daha effektli xidmət etməyə imkan yaradır. Məsələn, yerli brendlərin maraq kəsb edən xarici ölkələrdə qeydiyyatı üçün "Patent və Əmtəə Nişanları Mərkəzi" publik hüquqi şəxsinin xidmətlərindən yararlanaraq, beynəlxalq sənədlərin verdiyi imkanlardan səmərəli istifadə etmək mümkündür. Bunun nəticəsidir ki, artıq 100-ə yaxın milli nişan beynəlxalq mühafizə qabiliyyətini əldə edib. Siz bu nişanlar haqqında ÜƏMT-nin rəsmi saytında da tanış ola bilərsiniz.

Bundan başqa sənaye mülkiyyəti obyektləri sırasında ixtiraların sənayedə tətbiqi mexanizmlərinin inkişafı zəruriliyinə diqqət çəkmək istərdim. Dünya iqtisadiyyatının inkişafının şərtləndirən əsas amillər sırasında innovativlik hər zaman aparıcı yer tutmaqdadır. İqtisadi inkişafın səviyyəsi, sənayenin rəqabətqabiliyyətliliyi investisiyaların həcmi ilə bərabər, innovativliyinin səviyyəsi ilə daha da çox qiymətləndirilməkdədir. Cari iqtisadi proseslər Azərbaycan sənayesində innovativliyin təşviqi, ədalətli rəqabət və azad ticarət şəraitinin təmin olunmasına, yerli sənaye məhsullarının dünya bazarında rəqabətqabiliyyətliliyinin artırılmasına yönəlib.

Sənayenin effektivliyinə təsir edən bir çox iqtisadi və sosial faktorlar sırasında yaradıcı yeniliklər əsas amillər kimi qiymətləndirilir. İntellektual komponentlər qeyri-maddi aktivlər olaraq məhsul və xidmətlərə əlavə istehlak xüsusiyyətləri verməklə istehlak bazarında daha da uğurlu nəticələrə yol açır.

Bu baxımdan ölkəmizdə elmin iqtisadiyyatla, sənaye ilə bağlantısının təmin olunması, yeni həllərin axtarışının təşviq olunması, real iqtisadi səmərəyə yönəlmiş elmi nəticələr üzərində hüquqların qorunması istiqamətində birgə fəaliyyətin vacibliyi artmaqdadır. Buna görə də əqli mülkiyyət obyektləri üzərində hüquqların düzgün müəyyən olunması, qorunması və effektiv idarəolunması mexanizmlərinin davamlı inkişafı zəruridir.

## Suraxanıda növbəti ağacəkmə aksiyası keçirilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin respublikada ekoloji tarazlığın qorunması ilə bağlı verdiyi müvafiq tapşırıq və tövsiyələrə uyğun olaraq, Suraxanı rayon icra hakimiyyəti rayonun bütün qəsəbələrində ağacəkmənin növbəti mərhələsini uğurla davam etdirir. Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə növbəti kütləvi ağacəkmə aksiyası rayonun Əmircan qəsəbəsində və Balandin küçəsinin ətrafında keçirilib. Ağacəkmə aksiyasında rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov, RİHB aparatının əməkdaşları, RİHB-nin qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndələri, qəsəbə bələdiyyələri, sənaye müəssisələrinin, Suraxanı rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin işçiləri və sakinlər iştirak ediblər. Bu aksiyaların keçirilməsində məqsəd yaşıllıq zolaqlarını genişləndirmək, rayonun ekoloji tarazlığını bərpa etmək və insanlar arasında təbiətə qayğı hissini təbliğ etməkdir. 200 nəfərin iştirak etdiyi iməcilikdə yolun kənarlarında müvafiq təmizləmə işləri aparılıb, abadlıq işləri görülüb, mövcud olan yaşıllığa qulluq edilib və ərazidə 200-dən artıq ağac əkilib.

Davamlı şəkildə həyata keçirilən ağacəkmə aksiyaları nəticəsində rayonun ərazisi abadlaşır, yaşıllıqlarla zənginləşir, ekoloji mühit sağlamlaşır və torpaq qatı münbitləşir. Mövsümün sonuna qədər rayonda ağacəkmə aksiyalarının davamlı keçirilməsi nəzərdə tutulub.

**ZÜMRÜD**

## Qusarda Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubiley tədbirləri davam edir




YAP Qusar rayon təşkilatının Gigiyena və Epidemiologiya Mərkəzi ərazi ilk partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Siyasi Şuranın üzvü, rayon təşkilatının sədri David İbramxəlilov ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının ölkəmizdə ictimai-siyasi proseslərin mürəkkəb və keşməkeşli axarda cərəyan etdiyi bir vaxtda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yarandığını qeyd edib: "YAP qısa müddətdə ölkənin gələcək taleyini müəyyənləşdirən və əsas siyasi qüvvəyə çevrilən təşkilata çevrilib. Müasir dövrümüzdə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sədri olduğu və bu gün 700 mindən çox insanı sıralarında birləşdirən YAP müstəqilliyimizin, demokratik-hüquqi, dünyəvi dövlətimizin möhkəmləndirilməsi və dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması proseslərində daim yaxından iştirak edir".

Ulu Öndər Heydər Əliyevin siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, ölkəmiz bir-birindən əhəmiyyətli nailiyyətlərə imza atır və ən yüksək zirvələri fəth edir. D.İbramxəlilov Azərbaycanın bugünkü inkişafı və tərəqqisinin hər bir Azərbaycan vətəndaşında və YAP-ın hər bir üzvündə qürur hissi doğurduğunu qeyd edib. Tədbirdə çıxış edən YAP rayon təşkilatının sədr müavini, rayon təşkilatının Gigiyena və Epidemiologiya Mərkəzi ərazi ilk partiya təşkilatının sədri Nadirşah Şirinov YAP-ın yarandığı gündən şərəfli yol keçərək, cəmiyyətin əsas aparıcı siyasi təşkilatına çevrildiyini, bu müddət ərzində ölkəmizin siyasi və iqtisadi müstəqilliyinin daha da möhkəmləndiyini vurğulayıb. Sonra məruzə ətrafında çıxışlar da dinlənildi.

**N.BAYRAMOVA**

## Yasamal rayonunda Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə tədbirlər davam edir



YAP Yasamal rayon təşkilatı İnşaatçılar - 11 ərazi ilk partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbirdə çıxış edən ərazi ilk partiya təşkilatının sədri Qulu Novruzov partiyanın ötən dövr ərzində böyük inkişaf yolu keçdiyini vurğulayıb. Azərbaycan dövlətçiliyinin formalaşmasında, ictimai-siyasi sabitliyin bərqərar olmasında, ölkəmizdə qazanılan uğurlarda Yeni Azərbaycan Partiyasının mühüm rol oynadığını diqqətə çatdırıb.

Tədbirdə çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov Yeni Azərbaycan Partiyasının bu gün cəmiyyətdə çox böyük nüfuza malik olduğunu vurğulayıb: "Partiyanın əsas vəzifələri olan dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik-hüquqi, dünyəvi dövlət qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi Azərbaycan xalqının mənafelərinə bütünlüklə cavab verir. Çətin şəraitdə yaranan YAP-ın çox qısa müddətdə güclü və mütəşəkkil siyasi qüvvə kimi formalaşması və ətrafına insanları toplaması bir daha Ulu Öndər Heydər Əliyev fenomeninin, dühasının qüdrətindən xəbər verir".

Tədbirdə çıxış edən YAP Yasamal rayon təşkilatının sədr müavini Rasim Nəbiyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Himalay Qasımov YAP-ın yaranması və inkişafı tarixindən, partiyanın müasir Azərbaycanın həyatında oynadığı rolundan danışıblar.

**NƏZAKƏT**

## Bakı Şopinq Festivalı paytaxtımızı xarici turistlərə daha cəlbedici edib

Artıq bir neçə gündür ki, paytaxtımızda İkinci Bakı Şopinq Festivalına start verilib. Paytaxtımızda ikinci dəfə keçirilən bu festival, nəinki turistlərin axınını təşkil etmək, eyni zamanda, daxili turizmi inkişaf etdirmək məqsədi daşıyır. Bu baxımdan, festival ölkəmizdə sahibkarlığın inkişafına, eləcə də, Azərbaycanın turizm gəlirlərinin artmasına öz töhfəsini verir.

Hər il paytaxt Bakıda təşkil ediləcək Bakı Şopinq Festivalı ilk dəfə cari il aprelin 10-dan mayın 10-dək keçirildi. Azərbaycan Prezidentinin 2016-cı il 1 sentyabr tarixli "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən keçirilən festivalın təşkili Mədəniyyət və Turizm Nazirliyinə həvalə olundu və nazirliyin nəzdində olan Azərbaycan Konqreslər Bürosu tərəfindən həyata keçirildi. Bakı Şopinq Festivalının təşkil olunması isə ölkə başçısının 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də öz əksini tapmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin "2017-ci il oktyabrın 15-dən noyabrın 15-dək Bakı şəhərində keçiriləcək Ticarət Festivalı ("shopping festival") ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən, Azərbaycan Respublikasında turizmin inkişafı istiqamətində görülən işlərin davamı olaraq, 2017-ci il oktyabrın 15-dən noyabrın 15-dək Bakı şəhərində Ticarət Festivalının təşkili məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 1 (bir) milyon manat ayrıldı.

Birinci Bakı Şopinq Festivalına olduğu kimi, İkinci Bakı Şopinq Festivalına da ciddi hazırlıq işləri görülüb. Belə ki, İkinci Şopinq Festivalı bir çox yeniliklərlə alıcıların görüşünə gəlib. Əgər Birinci Şopinq Festivalında tərəfdaş qismində çıxış edən müəssisələrin sayı 33 idisə, budəfəki festivalda 111-dir. Bu da əvvəlki festivalla müqayisədə üç dəfə artım deməkdir. 500-dən artıq ticarət obyekti iştirak edir. Mağazaların və xidmət mərkəzlərinin əksəriyyəti ƏDV-nin qaytarılması sisteminə qoşulub. Birinci Şopinq Festivalında əlavə dəyər vergisini cəmi 72 şirkət qaytarırdısa, budəfəki festivalda isə 467 müəssisə əlavə dəyər vergisini qaytaracaq. İlk dəfə olaraq, supermarketlər də "Bravo" hipermarketi və "Neptun" supermarketləri də bu festivala qoşulublar. Turistləri və alıcıları həvəsləndirmək üçün ticarət mərkəzlərində interaktiv oyunlar da təşkil olunub. Bir ay müddətində müştərilər dünya brendlərinə məxsus geyim, elektronika, məişət texnikası, mebel, ətriyyat və kosmetika, eləcə də, digər məhsulları Bakının bir çox mağazalarından xüsusi kampaniya və endirimlərlə əldə edə biləcəklər.

Görülən işlər və festivalın yüksək səviyyədə təşkili beynəlxalq tədbirlər məkanı kimi tanınan ölkəmizdə keçirilən Bakı Şopinq Festivalı paytaxtımızı xarici turistlərə daha da cəlbedici edib. Birinci festival zamanı - aprel ayı ərzində ölkəmizə 187 min 577, mayın ilk on günündə isə 70 min 776 turist səfər etmiş oldu. Heç şübhəsiz ki, növbəti festivalda paytaxtımıza səfər edən turistlərin sayında daha çox artım olacaq və bu da ölkəmizin turizm bazarına təsirsiz ötməyəcəkdir.

**N.ƏLƏDDİNQIZI**

## TRT HABER erməni terrorizminin dəhşətli nəticələri ilə bağlı veriliş yayımlayıb




Türkiyənin aparıcı TRT HABER televiziya kanalı erməni terrorizminə həsr olunan geniş veriliş yayımlayıb. AZƏRTAC xəbər verir ki, "Örtülən tarix" adlı verilişdə erməni terrorizminin yaranması, genişlənməsi, türk diplomatlarına qarşı törədilən amansız terror aktları, bu cinayətləri həyata keçirən terrorçuların qanunsuz olaraq həbsdən azad edilməsi kimi məqamlar yer alıb.

Veriliş keçmiş səfirlər - Ömər Lütəm və Nuri Yıldırım, araşdırmaçı-yazıçı Reyhan İşəri və Fatma Sarıkayanın təhlilləri əsasında hazırlanıb. Kadrlarda erməni terrorçularının türk diplomatlarına və Türkiyənin xarici ölkələrdəki şirkətlərinin ofislərinə qarşı təbiq etdikləri terror aktlarının ağır nəticələri, həmin cinayətlər barədə KİV-lərdə yayılan xəbərlər əks olunub. Birmənalı olaraq əsaslandırılıb ki, erməni terrorizminin geniş yayılmasında və müasir dövrdə canlanmasında əsas amil dünyadakı ikili standartlardır. Qeyd olunub ki, terrorçunun yanında olmaq özü də cinayətdir.

# İkili yanaşma Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzanmasına gətirib çıxarıb



***Öz fəaliyyəti ilə 25 ildən artıq vaxt keçməsinə baxmayaraq, üzərinə götürdüyü vasitəçilik missiyasını yerinə yetirə bilməyən ATƏT- in Minsk Qrupunun həmsədr dövlətləri bu gün də münaqişənin nizama salınmasında heç bir əməli nəticə ortaya qoya bilmirlər. Müəyyən dairələrin maraqlarından çıxış edən bu qurum cəbhədə erməni təxribatlarına dözüm nümayiş etdirir.***

Nəticə etibarilə vəziyyət dəyişmir, münaqişə tərəfləri, o cümlədən, Ermənistanın hərbi xuntası vəziyyəti daha mürəkkəb məcraya yönəldir. Çox təəssüf ki, dünya birliyi Ermənistanın təcavüzkarlığına hələ də göz yumur, vəziyyətin nizama salınması istiqamətində heç bir əməli addam atmır. Münaqişənin nizamlanması istiqamətində yaxın zamanlarda mühüm irəliləyiş baş verməzsə, regionunda onsuz da kövrək olan ictimai-siyasi vəziyyət məcrasını dəyişərək, böyük kataklizmlərə yol açmış olacaq. Azərbaycan tərəfi, hər zaman olduğu kimi, yenə də öz haqlı mövqeyini müdafiə edəcək və dünya birliyindən də tələb edəcək ki, artıq yetər, ədalətsiz mövqe tutdunuz. Ya Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində Ermənistana əməli təziqlər göstərərək, danışıqlar masasına əyləşdirməli, ya da Azərbaycan tərəfi digər vasitələrdən istifadə edərək, ərazi bütövlüyünü bərpa edəcək.

Məlumat üçün xatırlatmaq lazımdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi çərçivəsində başlanmışdır.

1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası ATƏM-in üzvü olduqdan sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq, üzv olan dövlətlərin daha çox müzakirə obyektində olmuşdur.1992-ci il martın 24-də ATƏM-in Xarici İşlər Nazirləri Şurasının birinci əlavə görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə olunduqdan sonra münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində aparılan danışıqların səmərəliliyini təmin etmək üçün ATƏM-in Dağlıq Qarabağa dair sülh konfransının çağırılması haqqında qərar qəbul edildi. Sənəddə göstərilirdi ki, Minskdə çağırılacaq konfrans ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya, İsveç, Belarus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilsin. Lakin həmin vaxt Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı, nəinki münaqişənin hərbi tərəfini, eyni zamanda, onun mahiyyətini də dəyişərək, yeni siyasi problem yaratdı və sülh missiyasını öz üzərinə götürmüş Minsk Konfransının keçirilməsi yolunda maneəyə çevirildi. 1992-1993-cü illərdə münaqişəni nizama salmaq üçün ATƏM-in Minsk Qrupu tərəfindən BMT TŞ-nın 822, 853 və 874 saylı qətnamələrinin yerinə yetirilməsinə dair "Təxirəsalınmaz tədbirlərin dəqiqləşdirilmiş cədvəli" yenidən münaqişə tərəflərinin müzakirəsinə verildi. Minsk Qrupunun bu illərdəki fəaliyyətinə nəzər salsaq, görərik ki, onun BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini yerinə yetirmək üçün hazırladığı "Təxirəsalınmaz tədbirlər cədvəli" heç bir təsir gücünə malik deyildi.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul olunmuş qətnamələri Azərbaycan Respublikası və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərin toxunulmazlığına hörmət olunmasını bir daha təsdiqlədi. BMT Təhlükəsizlik Şurası Ermənistanın işğalçı qoşunlarının Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam, qeyd-şərtsiz çıxarılmasını tələb etdi, qaçqın və köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına çağırdı. Bu qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilməmişdir. ATƏT-in Minsk Qrupu tərəfindən qəbul edilən sənədlər yalnız məsləhət və tövsiyə xarakteri daşıyırdı. Lakin ərazi bütövlüyü pozulan Azərbaycan bütün vasitəçilik missiyalarından imtina etməyərək, problemin ATƏM-in prinsipləri çərçivəsində həllinə tərəfdar olduğunu bir daha bəyan etdi. Münaqişənin beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması məsələsi 1993-cü ilin ikinci yarısından başlayaraq, Ümummilli Lider Heydər Əliyevin böyük səyi və zəhməti hesabına dünya birliyinin diqqətinə çatdırıldı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədilə, məhz Ulu Öndər Heydər Əliyevin qətiyyəti və əzmkar fəaliyyəti sayəsində 1994-cü il mayın 12-də atəşkəs haqqında razılıq əldə edildi. Bundan sonra ATƏT-in Minsk Qrupu çərçivəsində, müntəzəm olaraq danışıqlar aparılmağa başlandı. ATƏT-in dövlət və hökumət başçılarının 1994-cü il 5-6 dekabr tarixlərində Budapeştdə keçirilən sammitində ATƏM çərçivəsində bütün vasitəçilik səylərinin əlaqələndirilməsi üçün Minsk Konfransı həmsədrlik institutunun yaradılması barədə qərar qəbul olundu. Minsk Konfransına iki həmsədr təyin edilməsi və Minsk Qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul edildi. ATƏM-in Minsk Konfransında, o cümlədən, Minsk Qrupunda daimi həmsədrlik Rusiyaya tapşırıldı. İkinci həmsədr Finlandiya seçildi, sonradan isə o, İsveçlə ilə əvəz edildi. 2-3 dekabr 1996-cı il tarixlərində keçirilən ATƏT-in Lissabon Zirvə toplantısında ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyərdə olan sədri Flavio Kotti Dağlıq Qarabağ münaqişəsinin həllinin əsasını təşkil etməli olan prinsipləri tövsiyyə etdi. Lakin Ermənistan bu prinsipləri qəbul etməkdən imtina etdi və ATƏT-in 54 üzv dövləti arasında bu təklifin əleyhinə səs verən yegane dövlət oldu. ATƏT-in Lissabon Zirvə toplantısından sonra Rusiya ilə yanaşı, Fransa və ABŞ nümayəndələri də Minsk Qrupunun həmsədrləri təyin olundu. ATƏT-in Minsk Qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq, 1997-ci ilin ikinci yarısından bu günə kimi, iki hissədən ibarət, yəni Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 6 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi ilə bağlı 3 təkliflə çıxış etmişlər. 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin "paket" (bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla, bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu) həlli, 1997- ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif münaqişənin "mərhələli" (bu variantda isə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu) həllindən ibarət idi. Azərbaycan həmin planlarla tam razı olmasa da, həmsədrlərin irəli sürdüyü hər iki təklifini qəbul etdiyi halda, Ermənistan tərəfi qeyri-konstruktiv mövqedən çıxış edərək, həmin təkliflə razılaşmadı. 10 oktyabr 1997-ci il tarixində Strasburqda Azərbaycan və Ermənistan prezidentləri birgə bəyanatla çıxış edərək, "həmsədrlərin son təkliflərini Minsk Qrupu çərçivəsində danışıqların bərpa edilməsi üçün ümidverici baza" olduğunu bildirdilər. Lakin o dövrdə Ermənistanda gedən ictimai-siyasi proseslər Levon Ter-Petrosiyanın istefası və 1998-ci ilin martında Robert Koçaryanın hakimiyyətə gəlişindən sonra həmsədrlərin bölgəyə növbəti səfəri zamanı Ermənistan, rəsmi olaraq, münaqişənin "mərhələli" həlli təkliflərinə dair razılığını geri götürdü. 9 noyabr 1998-ci il tarixində həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin, Azərbaycan üçün qətiyyən qəbuledilməz olan "ümumi dövlət" konsepsiyasına əsaslanan yeni təklif irəli sürdülər. Bu konsepsiyaya, əsasən, "Dağlıq Qarabağ Respublika" formasında dövlət və ərazi vahidi statusu əldə etməli və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanla birlikdə ümumi dövlət təşkil etməli idi. Azərbaycan bu təklifləri onun suverenliyinə və Lissabon prinsiplərinə zidd olması səbəbindən rədd etdi. Bundan sonra heç bir yeni təklif irəli sürülmədi və Minsk Prosesi çıxılmaz vəziyyətə düşdü. 1999-cu ilin aprelindən onsuz da dalana dirənmiş danışıqları bərpa etmək üçün Azərbaycan və Ermənistan prezidentləri arasında münaqişənin həllinə nail olunması məqsədilə birbaşa görüşlər başladı. 2002-ci ilin 13-15 mart və 29-30 iyul tarixlərində Praqa yaxınlığında hər iki dövlət başçısının xüsusi nümayəndələrinin iki görüşü baş tutdu. 2004-cü ilin aprel ayından etibarən "Praqa prosesi" çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında birbaşa danışıqlar başladı. "Praqa prosesi" adını almış planın əsas elementləri ondan ibarət idi ki, burada nizamlanmanın "mərhələli həll" variantının detalları müzakirə obyektinə çevrilmişdi. Yeni sülh planının əsas prinsiplərini aşağıdakılar təşkil edirdi: 1.Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudları boyunca olan işğal olunmuş ərazilərdən (Ağdam, Füzuli,Cəbrayıl,Qubadlı və Zəngilan) Ermənistan öz qoşunlarını mərhələli şəkildə çıxardır; 2. Azərbaycan ilə Ermənistan arasında diplomatik və iqtisadi əlaqələr bərpa olunur; 3.Laçın və Kəlbəcər bölgələri istisna olmaqla, işğaldan azad olunmuş ərazilərə beynəlxalq sülhməramlı qüvvələrin müdafiəsi altında Azərbaycan əhalisi qayıdır; 4.Dağlıq Qarabağın statusu məsələsi həll olunur.

2004-2006-cı illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesi istiqamətində aparılan danışıqlarda Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış etməsi "Praqa Prosesi"nin fəaliyyətsiz dönəminə və danışıqların nəticəsiz qalmasına gətirib çıxardı. 2007-ci ilin noyabr ayının sonunda Madriddə münaqişənin nizama salınması prosesini sürətləndirmək üçün yenidən baza prinsipləri tərəflərə təqdim olundu. Bundan sonra hər iki ölkə prezidentlərinin 14 görüşü keçirilmişdir. Bu görüşlərdən 6-sı Rusiya prezidentinin vasitəçiliyi ilə keçirildi. Ancaq 25 ildir ki, təcavüzkar Ermənistan aparılan danışıqlar prosesini hər vəchlə pozaraq, özünün qeyri-konstruktiv mövqeyini qoruyaraq, vaxt qazanmağa çalışır.

Dünyanın nüfuzlu təşkilatlarının, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, ATƏT, Avropa Şurası və İslam Konfransı Təşkilatının qərarları ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır. Bundan əlavə, Avropa Parlamenti və NATO-nun Zirvə toplantılarında qərarlarda, birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğala son qoyulması bildirilir. Təkcə 1999-cu ilin aprelindən başlayaraq bu günədək hər iki ölkə prezidentlərinin 50 görüşü keçirilmişdir. Bundan əlavə, Prezident İlham Əliyev ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə bu günədək 55-dən çox görüş keçirmiş, münaqişənin nizama salınması istiqamətində Azərbaycanın haqlı mövqeyini müdafiə etmiş, sülhün tərafdarı olduğunu və münaqişənin sülh yolu ilə həlli variantının olmasını bir daha bəyan etmişdir.

Ancaq nəticə dəyişmir, beynəlxalq birlik bu gün də susur. Ermənistan hərbi xuntası yenə öz pozuculuq fəaliyyətindən qalmır. Hər gün Ermənistan tərəfindən atəşkəs rejimi pozulur. Dünyada hamılıqla qəbul olunmuş "Terrorizmə yox deyirik" prinsipi Ermənistanın dövlət siyasətinə çevrilib. Təkcə bir faktı qeyd edim ki, 8 mart 2011-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən snayperdən açılan atəş nəticəsində qətlə yetirilən 8 yaşlı azərbaycanlı balası Fariz Bədəlovun, 2017-ci il iyulun 4-də mina və qumbaraatanlardan Füzuli rayonunun Alxanlı kəndinə edilmiş hücum nəticəsində 2 dinc sakin - 2 yaşlı Zəhra Quliyeva və onun nənəsininin qətlə yetirilməsi erməni vandallığının bir daha əyani sübutudur. Günahsız insanların qətlə yetirilməsini özlərinə "prinsip" seçən hərbi xunta gec-tez ədalət mühakiməsi qarşısında cavab verməli olacaq. Ya bu rejim beynəlxalq hüquq və prinsiplərə hörmətlə yanaşaraq, qəbul olunmuş qərarların icrasını yerinə yetirərək, işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməli, ya da şanlı Azərbaycan Ordusunun hünərini görməlidir.

ATƏT-in Minsk Qrupunun həmsədr dövlətləri, tez bir zamanda, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmasalar, Azərbaycan tərəfi pozulmuş ərazi bütövlüyünü, hərb güc yolu ilə də olsa, bərpa edəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi: "Biz imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın". Bəli, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, ata-babalarının məzarları düşmən tapdağında qalsın. Bunu Azərbaycanın qəhrəman oğulları 2016-cı ilin aprel döyüşlərində bir daha sübut etdilər. Biz əminik ki, Azərbaycan xalqı ölkə başçısı, Cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, torpaqlarımızı erməni qaniçənlərindən geri alacaq və zəfər bayramını qeyd edəcəklər.

***Mürvət İbrahimov,***
***Nizami rayon icra hakimiyyətinin məsul işçisi,***
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistri***

# Ağıllanmaq I Aramın, S.Sarkisyanın, həmçinin, ermənilərin haqqıdır

*Mübariz Əhmədoğlu: “Erməni diasporu prezident S.Sarkisyandan ciddi narazılığını gizlətmir”*

***“Yüksək Kilikiya Evinin başçısı I Aram Avropa ermənilərinin forumunda iştirak edərkən, Dağlıq Qarabağı ermənilərin tarixi torpağı adlandırdı və Dağlıq Qarabağın müstəqilliyinin erməni xalqının haqqı olduğunu bildirdi”. Bu barədə Siyasi İnnovasiyalar və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu bildirib. Onun sözlərinə görə, ermənilərin ikinci, diasporun birinci keşişi olan I Aram milli tələbkarlıq prinsipini gündəliyə gətirdi.***




SİTAT: “I Aramın fikrincə, Ay dat (erməni məsələsi) milli tələbkarlıq prinsipini dünyanın hər yerində yaymalıdır. I Aram və onun timsalında diaspor başa düşür ki, Dağlıq Qarabağ məsələsində hər şey S.Sarkisyanın və E.Nalbandyanın dediyi kimi deyil. Ona görə, o, Dağlıq Qarabağ məsələsində tələbkarlığı artırmağı milli məsələyə çevirdi. Bu məsələdə I Aramın mövqeyi mötəbər mövqe kimi qəbul edilə bilər. Çünki I Aram Cenevrəyə gələrək, prezident S.Sarkisyanla ATƏT-in Minsk Qrupunun həmsədrləri və Azərbaycan Prezidenti ilə görüşündən əvvəl görüşdü. Əhvali-ruhiyyələrindən hər şey bəlli idi: yaxşı bir şeyə ümid etmirlər. İş də burasındadır ki, bu yaranmış vəziyyət və onun davamı bütün dünya erməniliyini faciəyə sürükləyir. Bunun çox aydın əlaməti var”.

### “Ermənistanın iş adamları ABŞ-da silsilə görüşlər keçirsə də, ABŞ-la Ermənistan arasında ticarətin genişləndirilməsi və ikiqat vergiqoymanın ləğvi məsələsini gündəliyə gətirə bilmədilər”

“Əgər I Aram, S.Sarkisyan və E.Nalbandyan ermənilərin 1988-ci ildəki və indiki vəziyyətlərini müqayisə etsə, bunu aydın görərlər”-deyə qeyd edən politoloqa görə, o zaman Ermənistanı və onun yaratdığı Dağlıq Qarabağ problemini bütün dünya dəstəkləyirdi: “Spitak zəlzələsi zamanı ABŞ-dan açılan yardım karvanına o zamankı prezident C.Buşun oğlu başçılıq edirdi. İlk təyyarə ilə özü Yerevana gəldi. Amma təxminən 3 il bundan qabaq ABŞ-ın o zaman Ermənistandakı səfiri C.Heffernin inadlı dəstəyi ilə Ermənistanın iş adamları ABŞ-da silsilə görüşlər keçirsə də, ABŞ-la Ermənistan arasında ticarətin genişləndirilməsi və ikiqat vergiqoymanın ləğvi məsələsini gündəliyə gətirə bilmədilər. SSRİ mərkəzi hökumətindən, ABŞ-dan və erməni diasporundan gələn yardımları da üst-üstə hesablasaq o dövrdə Ermənistanın 7-8 milyard dollar pulu var idi. İndi isə Ermənistanın 7 milyard dollar borcu var. S.Sarkisyan prezident kimi dəfələrlə ABŞ-da olub. ABŞ-ın heç bir rəsmisi onunla adicə görüşməyib də”.

### “Danışıqlar prosesinə vurulan zərbə hələ aradan qaldırılmayıb” fikri o deməkdir ki, Ermənistanda bacardıqları qədər çalışacaqlar ki, danışıqlar prosesindən yayınsınlar”

“Ermənistanın heç bir geosiyasi tərəfdaşı yoxdur”-deyə qeyd edən M.Əhmədoğlu qeyd edib ki, ermənilərin dini tənəzzülü başlayıb: “Kilsə biznes-kommersiya obyektinə çevrilib. I Aramın rəhbərlik etdiyi bir dövrdə Yaxın Şərqdə ermənilərin sayı hədsiz dərəcədə azalıb. I Aramın ayılması üçün nələrin baş verməsini başa düşmək çox çətindir. Ermənistanın xarici işlər naziri E.Nalbandyan da ATƏT-in Minsk Qrupu həmsədrlərinin 3 bəyanatını tapdalayaraq, Cenevrə görüşündən 3 gün sonra eynilə əvvəlki ampluasına qayıtdı: “danışıqlar prosesinə vurulan zərbə hələ aradan qaldırılmayıb” fikri o deməkdir ki, Ermənistanda bacardıqları qədər çalışacaqlar ki, danışıqlar prosesindən yayınsınlar. Azərbaycan dialoq və danışıqlar prosesinin tərəfdarıdır. Ermənistan dinc tənzimlənmə prosesinə “hə-hə” deməklə, özünün əsl maraqlarını gizlədir. Ermənistanın əsl niyyəti prezidentlərin görüşünün baş tutmamasıdır. Ermənistanda bilirlər ki, prezidentlərin görüşü Dağlıq Qarabağ tənzimlənməsini yaxınlaşdırır. Dağlıq Qarabağ tənzimlənməsinin fəlsəfi konsepti tam aydındır: Ətraf ərazilər yaxın müddət ərzində, Dağlıq Qarabağ özü isə, bir müddətdən, tutaq ki, 20-25 ildən sonra Azərbaycanın tərkibinə qayıdır. Ortalıqda olan bütün variantlarda Dağlıq Qarabağın müstəqil olması və yaxud Dağlıq Qarabağın Ermənistana birləşməsi adlı heç bir ideya yoxdur”.

### “Ermənilər yeni yaranmış şəraitdə köhnə siyasəti davam etdirməklə, özlərini məhvə sürükləyirlər”

Politoloqa görə, Ermənistan rəhbərliyi uzun müddət xalqı referendumla aldadıb: “Guya Dağlıq Qarabağ xalqı var. Dağlıq Qarabağ xalqı öz müqəddəratını referendum yolu ilə həll edəcək. İstər Lavrov, istər Hoqland variantı Yenilənmiş Madrid Prinsiplərinin törəmələridir və bu variantların heç birisində “Dağlıq Qarabağ” adlı xalq və Dağlıq Qarabağ ermənilərinin öz taleyini referendum vasitəsilə həll etməsi məsələsi göstərilməyib. Ermənilər yeni yaranmış şəraitdə köhnə siyasəti davam etdirməklə, özlərini məhvə sürükləyirlər. Bu halda, I Aramın ortalığa gətirdiyi milli tələbkarlıq anlayışı artıq “Sasna srer” hadisələrinə dini və ümum erməni maraqları prizmasından haqq qazandırmaqdan başqa bir şey deyil. Erməni xalqının hansı haqqının olub-olmaması mövzusunda diskussiya açmaq olar. Bir şeyi dəqiq demək olar: ağıllanmaq I Aramın, S.Sarkisyanın, həmçinin, ermənilərin haqqıdır”.

***Rövşən NURƏDDİNOĞLU***

# Düşmən təxribatlarının qarşısı sərt şəkildə alınır

*Tahir Mirkişili: “Ermənistanın ən çox qorxduğu amil Azərbaycan Ordusu və onun Ali Baş Komandanıdır”*



***- Tahir müəllim, prezidentlərin Cenevrə görüşündən sonra cəbhədə erməni təxribatları intensivləşib. ATƏT-in Minsk Qrupunun həmsədrləri isə yenə də susurlar. Bu ikili yanaşmanı nə ilə izah etmək olar?***

- Cenevrə danışıqlarına Ermənistan prezidenti məcbur olub getdi. Heç bir ilkin şərtlərsiz. Danışıqlardan sonra Ermənistanın təxribatlara getməsi ilk belə hadisə deyil. Əslində, həyata keçirilən təxribatlara da ordumuzdan layiqli cavab alırlar. Hər kəs, o cümlədən, ATƏT-in Minsk Qrupu həmsədrləri də Ermənistanın danışıqları pozmaq üçün həyata keçirdiyi təxribatların məqsədini anlayır. Ancaq susqunluq ikili standartların bariz nümunəsidir.

**Müsahibimiz millət vəkili Tahir Mirkişilidir**

***- Xankəndidə Sarkisyanın tapşırığı ilə erməni səhra komandirlərinin toplantısı keçirilib. Sizcə, belə toplntılarla erməni hərbi xuntası nə planlaşdıra bilər?***

- Sarkisyan anlayır ki, nəticəsiz danışıqların və Ermənistan tərəfindən edilən təxribatların sonu müharibədir. Azərbaycan qanuni olaraq öz torpaqlarını azad etmək gücündədir. Aprel hadisələri də bunu bir daha onlara sübut etdi. Sarkisyan bunları bilərək və görərək hər bir halda, hərbi sahədə müdafiəni gücləndirmək məqsədilə belə görüşlər keçirir. Çünki Ermənistanın ən çox qorxduğu amil Azərbaycan Ordusu və onun Ali Baş Komandanıdır.

***- Cəbhədə gərginliyin yarandığı bir məqamda Rusiya Ermənistana 100 milyon dollar dəyərində silah satdı. Bu, o deməkdir ki, gərginliyin alovlanmasında Rusiya maraqlıdır?***

- İstənilən halda, Ermənistan kimi işğalçı dövlətə silah verilməsi münaqişənin həllinə yardım etmir. Ermənistan daim Rusiyadan silah alır. Əvvəlki dövrlərdə də 1 mlrd. dollar dəyərində silah yardımı almışdır. Ancaq aprel hadisələri göstərdi ki, bu silahlar belə onların köməyinə yetməyəcək. Azərbaycan Ordusu arsenalında olan müasir texnoligiyalar qarşısında Ermənistan ordusu heç nə edə bilmir.

***- Qarabağ münaqişəsinin həllində Ermənistan qeyri-konstruktiv mövqe sərgilədiyi halda, beynəlxalq təşkilatlar susqunluq nümayiş etdirirlər. Səbəb nədir?***

- Ermənistanın qeyri-konstruktiv mövqe sərgiləməsinin bir neçə səbəbi var. İlk öncə, təbii ki, onu dəstəkləyən və Azərbaycana dost olmayan qüvvələrə arxalanması və Ermənistan hakimiyyətinin ömrünün uzanmasında Dağlıq Qarabağ münaqişəsinin uzanması amilidir. Beynəlxalq təşkilatlar da müəyyən vaxtlarda ümumi bəyanatlar verməklə, kifayətlənirlər. Azərbaycanın tələbi işğalçı ölkəyə təzyiqlərin göstərilməsi və sanksiyaların tətbiq olunmasıdır. Belə qərarların olmamasının əsas səbəbi ikili standartların olması və regionda həddindən artıq müxtəlif dövlətlərin geosiyası maraqlarının olmasıdır. Ancaq İspaniyada baş verən hadisələr göstərdi ki, belə ikili standartlar Dağlıq Qarabağ münaqişəsi kimi separatçı münaqişələrin bütün dünyada yayılmasına şərait yaradır və bu, çox təhlükəli tendensiyadır.

***GÜLYANƏ***

# AzTU-nun tələbələri yüksək gərginlikli elektrik avadanlıqlarının diaqnostikasını aparıb



Azərbaycan Texniki Universitetində (AzTU) “Elektrik mühəndisliyi” ixtisası üzrə təhsil alan tələbələrə nəzəri biliklərlə yanaşı praktiki məşğələlər də yüksək səviyyədə tədris olunur. Universitetin “Elektromexanika və Elektrik avadanlığı” kafedrasında tədris olunan “Elektrik avadanlıqlarının diaqnostikası” və “Kabel texnikası” fənləri üzrə dərslərin tədrisi zamanı yeni tədris texnologiyalarından, xüsusi ilə dual tədris texnologiyalarından istifadə olunur. Ən son texnologiyalardan hesab edilən dual tədris texnologiyası ilə dərslərin aparılması nəzəri biliklərin möhkəmlənməsi ilə paralel praktik vərdişlərin mənimsənilməsinə istiqamətlənib. Bu məqsədlə “Elektromexanika və Elektrik avadanlığı” kafedrası həmin dərsləri “Azərişıq” ASC-nin müasir sınaq və diaqnostika avadanlıqları ilə təchiz olunmuş Mobil Elektrotexniki laboratoriyasında tədris edir.

Növbəti tədris prosesi zamanı laboratoriyadan istifadə edilərək AzTU-nun 6 kV-lıq Transformator Məntəqəsində, yüksək gərginlikli elektrik avadanlıqlarının və kabel xətlərinin diaqnostikası aparılıb.

Qeyd edək ki, Elektrik mühəndisliyi sahəsində tədrisin yüksək səviyyədə təşkili üçün AzTU ilə “Azərişıq” ASC arasında razılaşma əldə olunub. Razılaşmaya əsasən, universitetin Elektronika və energetika fakültəsində Elektrik mühəndisliyi üzrə təhsil alan tələbələr ixtisas fənnlərinin praktiki dərslərini “Azərişıq” ASC-nin Tədris Mərkəzində və yüksək gərginlikli yarımstansiyalarında keçirlər. Həmin dərslərdə “Azərişıq” ASC-nin təcrübəli mühəndislərinin də iştirakı tələbələrin praktiki bilikləri dərindən mənimsəməsinə təkan verir və Elektrik mühəndisliyi ixtisasını bitirən tələbələrin gələcəkdə işlə təmin olunmasına birbaşa şərait yaradır.

TƏRS BAXIŞ

# Müxalifətçilər AŞPA-dakı ermənipərəst dairələrə bağlı olduqlarını etiraf etdilər

*Azərbaycanın milli-dövlətçilik maraqlarını satmağa alışanlar niyə narahatdırlar?*



***Avropa Şurası Parlament Assambleyasının ölkəmizə qarşı başlatdığı çirkin siyasi oyunlar çərçivəsində Azərbaycan tərəfinin kəskin və qətiyyətli qərarlar verməsi dağıdıcı müxalifət düşərgəsini ciddi şəkildə narahat etməyə başlayıb. Azərbaycan dövlətinin və xalqının milli maraqlarının əksinə çıxış edən Avropa qurumunun rəhbərliyi və oradakı deputatların son vaxtlar daha da azğınlaşması artıq qəti qərarların verilməsinə, parlament səviyyəsində müzakirələrin aparılmasına sövq edib. Belə ki, Avropa Şurasının baş katibi Turbyern Yaqlandın ardınca Avropa Şurası Parlament Assambleyasının yeni rəhbərliyi də Azərbaycana qarşı əsl simasını göstərdi.***

Anti-Azərbaycan şəbəkəsinin aktiv dəstəkçisi kimi tanınan Yaqlandın öz himayədarlarından aldığı tapşırığa uyğun olaraq, başlatdığı növbəti qarayaxma kampaniyasına qoşulan və Avropa Şurasının baş katibi kimi ermənimaraqlarına işləyən bəzi avroparlamentarilərin səyi nəticəsində qurumun plenar iclasında ölkəmizə qarşı iki qətnamə layihəsi imzalanmasına nail olunub. Bu hadisədən bir neçə gün qabaq sabiq baş katib Pedro Aqramunt istefa ərazisini təqdim etmişdi. Hadisələrin bundan sonrakı inkişafı, onu deməyə əsas verir ki, yeni sədr Stella Kiriakidesin quruma rəhbərliyi erməni lobbisi və ermənipərəst dairələrin maraqlarına uyğun gəlib.

## Müxalifətçi partiya sədrləri unudublar ki, hazırda Azərbaycana qarşı çıxış edən AŞPA deputatlarının əksəriyyəti bilavasitə erməni lobbisinin pulları vasitəsilə alınıblar

Əbəs yerə deyil ki, Milli Məclisin son iclasında bir sıra deputatlar Azərbaycanın Avropa Şurasından çıxması haqqında qərar qəbul ediblər. Onlar, öz növbələrində, fikirlərini isə belə əsaslandırıblar ki, əgər Avropa Şurası ölkəmizi bu qurumdan çıxarmaq istəsə, əks addım atılmalıdır, onlar belə qərar qəbul edənə qədər Azərbaycan Avropa Şurasından çıxmalıdır.

Lakin nədənsə, müxalif tərəflər bu qərardan bərk nigaran olduqlarını gizlətməməklə yanaşı, ölkəmizin maraqlarına zidd qərarlar vermiş bir qurumun tərəfini saxlayıblar. Bununla da, daxillərindəki satqınçılıq xüsusiyyətlərini büruzə veriblər. Guya AŞPA-nın Dağlıq Qarabağ probleminin həllindəki fəaliyyətinin vacib olduğunu deyən müxalifətçi partiya sədrləri, digər tərəfdən, unudublar ki, hazırda Azərbaycana qarşı çıxış edən AŞPA deputatlarının əksəriyyəti, bilavasitə erməni lobbisinin pulları vasitəsilə alınıblar. Daha dəqiq desək, erməni lobbisinə satılıblar. Ədalətsiz, qərəzkar, asanlıqla qaraya ağ, ağa qara deməyə adət etmiş bu tipli deputatların assambleyada qruplar və dəstələr halında birləşərək, fəaliyyət göstərmələri deyilənləri tam şəkildə sübuta yetirmiş olur.

## Azərbaycanda yürüdülən müstəqil və demokratik siyasət heç vaxt erməni lobbisinin maraqlarının ayaq açıb yeriməsinə imkan verməyəcək!

"VİP" sədri Əli Əliyevin, AzDP sədri Sülhəddin Əkbərin, sabiq müsavatçı, hazırda özünə "Ağ Partiya" adlı təşkilat yaratmış Tural Abbaslının, ADP, "Ümid", KXCP, "Azadlıq" və s. müxalifətçi partiyaların mətbuata çıxaraq, AŞPA-nın cinahında yer almaları da qeyd edilən fikirləri sübuta yetirmiş olur. Qısası, Azərbaycanın milli dövlətçilik maraqlarına, erməni işğalına pərdəarxası dəstək göstərdiyini zamanzaman bənzər qərarları ilə sübuta yetirən bir qurumun dəstəkçilərinə çevrilmiş sözdə müxalifətçilər, məhz həmin addımları ilə AŞPA-dakı ermənipərəst dairələrə bağlı olduqlarını etiraf etmiş oldular.

Beləliklə, fakt budur ki, bu gün özlərini müxalifətin radikal, ya da loyal cinahında hiss edərək, hakimiyyətə qarşı siyasət yürütdüklərini iddia edən irili-xırdalı siyasi təşkilatlar və onların rəhbərləri hər an milli maraqları satmağa hazır olduqlarını gizlətmirlər. Buna isə, yəqin ki, "əsas" var. "Əsas" isə qarşıdan gələn prezident seçkiləridir. Seçkilər öncəsi ciblərinin ağızlarını avropalı deputatlara sarı tutan satqın müxalifət sonda olan-qalan maliyyə mənbələrini də itirəcəklərindən bərk narahat olmağa başlayıblar. Xüsusilə, erməni lobbisinin arzu-istəklərini aldıqları siyasi rüşvətlər və korrupsiyalar vasitəsi ilə reallaşdırmağa çalışan AŞPA-nın məlum deputatları Azərbaycana qarşı azğınlaşdıqca, bizim müxalifətçilər daha çox qazanc əldə edəcəklərini düşünürlər. Ancaq yanılırlar. Ona görə ki, Azərbaycanda yürüdülən müstəqil və demokratik siyasət heç vaxt erməni lobbisinin maraqlarının ayaq açıb yeriməsinə imkan verməyəcək. Hətta Azərbaycan AŞPA-dan çıxmaq bahasına olsa belə, bu murdar maraqları məhv edəcək. Buna əmin olsunlar!

**Rövşən RƏSULOV**

# Müxalifəti növbəti rüsvayçılıq gözləyir

Son günlər bir qədər fəallaşan dağıdıcı müxalifət və onların tör-töküntülərindən ibarət olan siyasiləşmiş QHT-lər müxtəlif pozucu bəyanatlarla çıxış edir, ultimativ fikirlər səsləndirirlər. Arada bir mitinqlər keçirməyə cəhdlər göstərirlər. Söhbət etdiyimiz müsahiblərimiz xalımızın qaysaq bağlamayan yarası olan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı danışıqların intensivləşdiyi məqamda, AXCP və "Milli Şura"-nın, eləcə də, Müsavatın aksiyalara meyil göstəmələrinin arxasında düşmən maraqlarına xidmət etmək məqamlarının dayandığını bildirdilər.

***Azadlıq Hərəkatçıları Birliyinin sədri*** *Təhmasib Novruzov:*



- Yenə yersiz əməllər, yenə yersiz hərəkətlər. Deyəsən, dağıdıcı müxalifət düşərgəsini təmsil edən şəxslərin işi-gücü yoxdur ki, bu cür boş-boş aksiyalar keçirməklə məşğul olurlar. Demək olar ki, onlar bu cür aksiyalar keçirməklə xaricdə olan havadarlarından maliyyə yardımları alaraq, özlərinin ciblərini doldurmağa ümid bəsləyirlər. Ümumiyyətlə, müxalifət təmsilçiləri hər fürsətdən yararlanmağa çalışıblar. Yəni öz şəxsi mənafeləri məqsədilə bu cür əhəmiyyətsiz addımlar atırlar. Yaxşı olardı ki, həmin qüvvələr daha rüsvayçı bir vəziyyətə düşməmiş, bu fikirlərindən əl çəksinlər. Əks təqdirdə, onları baş tutması qeyri-mümkün olan növbəti mitinq biabırçılığı gözləyir.

***Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri*** *Emin Həsənli:*



- Təəssüflər olsun ki, dağıdıcı müxalifət düşərgəsini təmsil edən şəxslər xarici qüvvələrin maraqlarını icra etməklə məşğul olurlar. Xalqımız müxalifət tərəfindən keçirilən bu aksiyalara heç vaxt dəstək verməyib və verməyəcəkdir. Ümumiyyətlə, müxalifət belə aksiyalar keçirməklə, özlərini daha da gözdən salırlar. Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri xarici təşkilatlardan və fondlardan maliyyə dəstəyi aldıqları üçün bu cür mitinqlər keçirməyə cəhdlər göstərirlər. Yəni müxalifətə boş yerə maliyyə dəstəyi verilmir. Qarşılığında layihə həyata keçirmək göstərişləri verilir.

***Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri*** *Anar Xəlilov:*



- Dağıdıcı müxalifət düşərgəsini təmsil edən şəxslər cəmiyyətdə öz nüfuzlarını çoxdan itiriblər. Sadəcə olaraq, müxalifət təmsilçiləri mövcudluqlarını saxlamaq naminə və xaricdə olan havadarlarından yenə maliyyə mənbəyi qazanmaq istəyirlər. Bir sözlə, müxalifətin ardıcıl olaraq, mitinqlər keçirməsində əsas məqsədləri xarici havadarlarından boş qalan ciblərini doldurmaqdır. Ümumiyyətlə, radikal müxalifət təmsilçilərinin bu günə qədər keçirdikləri bütün aksiyalar heç bir nəticə verməyərək, uğursuzluğa düçar olublar. Demək olar ki, müxalifət tərəfindən keçirilən bu aksiyalara heç kəs qatılmır. Sadəcə olaraq, bu aksiyalarda ancaq özləri və ətrafında olan qohumları qatılır. Xalq onların bu cür hərəkətlərindən bezib. Birmənalı tərzdə xalq tərəfindən müxalifətin heç bir siyasi dəstəyi yoxdur.

**GÜLYANƏ**

## Bu ilin 9 ayında 486 nəfərdə İİV virusu aşkar edilib



İİV infeksiyasının ilk dəfə aşkar edildiyi 1987-ci ildən bu ilin oktyabrınadək Respublika QİÇS-lə Mübarizə Mərkəzində 6 min 575 nəfər qeydiyyata götürülüb. Onlardan 6 min 364 nəfəri ölkə vətəndaşı, 211 nəfəri əcnəbidir. Həmin virusa yoluxanlardan 4 min 817 nəfəri kişi, 1758 nəfəri qadındır. AZƏRTAC xəbər verir ki, bu ilin doqquz ayında Mərkəzdə 390 nəfər rəsmi olaraq qeydiyyata götürülüb, onlardan 385 nəfəri ölkə sakinidir. Həmin virusa yoluxanların immun sistemi kəskin zəifləyir və onlar bir çox xəstəliklərə asanlıqla tutulurlar. Onların 46,1 faizi inyeksion narkotik vasitə istifadəsi nəticəsində virusa yoluxub. Yoluxanların təxminən 70 faizi kişilərdir. İİV virusuna yoluxanların 4 min 100 nəfərdən çoxu müalicəyə cəlb edilib. Bu ilin doqquz ayında isə 486 nəfərdə yoluxma aşkar edildiyinə görə müalicə olunur. Ümumilikdə isə QİÇS-lə Mübarizə Mərkəzində qeydiyyatdan keçən 5 min 510 nəfər xəstə var.

## 30 min ədəd siqaretin realizə edilməsinin qarşısı alınıb



30 min ədəd siqaretin realizə edilməsinin qarşısı alınıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Şirvan Gömrük İdarəsinin Gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə Sabirabad rayon sakininin idarə etdiyi "Saipa" markalı minik avtomobilində ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilən siqaretlərin realizə edilməsi barədə məlumat daxil olub. İdarənin əməkdaşları tərəfindən keçirilən əməliyyat tədbiri nəticəsində həmin avtomobil Sabirabad rayonu ərazisində saxlanılıb və gömrük baxışı keçirilməsi məqsədilə idarənin inzibati binasının həyətinə gətirilib. Sürücünün iştirakı ilə aparılan yoxlama zamanı nəqliyyat vasitəsinin yük yerindən üzərində aksiz markası olmayan 30 min ədəd siqaret aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

## Banqladeşə sığınan arakanlı müsəlmanların sayı 603 minə çatıb

Avqustun 25-dən Myanmada baş verən hadisələr səbəbindən Banqladeşə sığınan arakanlı müsəlmanların sayı 603 minə çatıb. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, bu barədə Birləşmiş Millətlər Təşkilatı məlumat yayıb. Bildirilib ki, arakanlı müsəlmanlar hazırda yaşamaq uğrunda mübarizə aparırlar. Banqladeşə müsəlmanların axını davam edir.

# Ulu Öndər Heydər Əliyevin Azərbaycan kino mədəniyyətinə qayğısı

Ulu Öndər Heydər Əliyev, Azərbaycan mədəniyyətinin bütün sahələri kimi, kino mədəniyyətinə də qayğı göstərmişdir:

* kinostudiyanın fəaliyyətini gücləndirmiş;
* maddi-texniki bazasını möhkəmləndirmiş;
* Azərbaycan xalqının milli-mənəvi varlığını, tarixi kökünü və adət-ənənələrini əks etdirən filmlərin çəkilməsini təşviq etmişdir.

S.Xəlilov Heydər Əliyevin çoxtərəfli fəaliyyəti haqqında yazır: "Qeyri-adi, unikal bir şəxsiyyət olan Heydər Əliyevin əməli fəaliyyəti də, hayatı da o dərəcədə önəmli və örnəklidir ki, onun hər bir məqamının işıqlandırılmasına böyük ehtiyac vardır. Bu barədə cild-cild kitablar yazılıb və hələ çox yazılacaq".

1969-cu ildə hakimiyyətə gəlişinin ilk məqamlarında kino mədəniyyətinin inkişafı üçün Heydər Əliyev aşağıdakı tədbirləri gördü:

* "Azərbaycanfilm"in işinin yaxşılaşdırılması məsələsinə xüsusi diqqət yetirdi;
* "Azərbaycanfilm"in maddi-texniki bazasının daha da inkişaf etdirilməsi barədə qərar qəbul etdi;
* Azərbaycan kinosunun 60 illiyi barədə qərar qəbul etdi.

AMEA-nın müxbir üzvü Musa Qasımlı yazır: "Heydər Əliyev Azərbaycan tarixi ilə bağlı filmlərin çəkilişini tövsiyə edir, bu məsələni Moskvadakı müvafiq strukturlar qarşısında qətiyyətlə qaldırırdı. Heç şübhəsiz, onun bu istiqamətdə fəaliyyətinin əsas göstəricilərindən biri "Nəsimi" filmi sayıla bilər. Heydər Əliyev "Nəsimi" kinofilminin çəkilişi ilə əlaqədar olaraq, SSRİ Nazirlər Soveti yanında Dövlət Kinematoqrafiya Komitəsinin sədri F.T.Yermaşa 1972-ci il avqust ayının 24-də məktub yazaraq, Suriya və Türkiyəyə 10-12 nəfərin 1 ay müddətinə ezam edilməsi üçün icazə verilməsini xahiş etdi. Lakin regionda siyasi vəziyyət mürəkkəb olduğundan, bu qədər şəxsin həmin ölkələrə ezam edilməsi mümkün olmadı. Bununla belə, kiçik bir nümayəndə heyəti 1973-cü ilin ortalarında 7-10 gün müddətində həmin ölkələrə səfər etdi. Heydər Əliyevin, bilavasitə qayğısı sayəsində "Nəsimi" kinofilminin bəzi kadrları dahi azərbaycanlı şairin edam edildiyi Hələb şəhərində çəkildi.

"Babək" kinofilminin çəkilişinin təşəbbüsçüsü də, bilavasitə Heydər Əliyev oldu. Azərbaycan rəhbəri filmin çəkilişini nəzarətdə saxlayır və işlərin gedişi ilə yaxından maraqlanırdı. Heydər Əliyev bu məsələnin geniş müzakirəsini keçirərək, filmin daha yaxşı alınmasından ötrü əlindən gələni edirdi. MK bürosunun 1978-ci il 14 aprel tarixli iclasında "Azərbaycan xalq kütlələrinin azadlıq hərəkatına həsr edilmiş iki seriyalı bədii filmin çəkilişinə kömək göstərilməsi haqqında məsələ" müzakirə olundu. Müzakirə zamanı maliyyə çatışmazlığının olduğu fikri səsləndirildi. Heydər Əliyevin göstərişi ilə "Azərbaycanfilm" studiyasına əlavə maliyyə vəsaiti ayrıldı. Məsələnin müzakirəsi zamanı çıxış edən Heydər Əliyev deyirdi ki, mən bu filmə çox böyük əhəmiyyət verirəm. Burada, xüsusi olaraq, nəzərə almaq lazımdır, birinci, elmi mötəbərlik, ikinci, ideya-bədii tərəf və kinematoqrafiya dəyəri. Bu üç məsələ tam əksini tapmalıdır, ona görə də, bu film sıradan biri olmamalıdır. Onu, həqiqətən, elə etmək lazımdır ki, İttifaq ekranında ən yüksək səviyyədə olsun.

Heydər Əliyevin tövsiyələri və tələbkarlığı öz bəhrəsini verdi. "Babək" filmi böyük ustalıqla çəkilərək, 70-ci illərin sonunda ekranlara çıxarıldı və geniş tamaşaçı kütləsinin rəğbətini qazandı. Kinofilm Azərbaycan xalqında qəhrəmanlıq, milli mənlik, özünə inam hisslərini yüksəldir, işğalçılara qarşı qisas və nifrət aşılayırdı. Filmin çəkilişinin başa çatması və böyük ekrana çıxması, heç şübhəsiz, Azərbaycan kino sənəti tarixində mühüm hadisəyə çevrildi.

Əvvəlki illərdə "Kitabi-Dədə Qorqud" dastanına rəsmi səviyyədə türkçü, turançı damğası vurulmuşdusa və Azərbaycan xalqına yad hesab edilmişdisə, Heydər Əliyev bu biabırçılığa cəsarətlə son qoydu. Onun bilavasitə göstərişi ilə Azərbaycan xalqında milli, tarixi köklərinə hörmət, torpaq, vətən sevgisi hissləri aşılayan "Dədə Qorqud" filmi yazıçı Anarın ssenarisi əsasında yaradıldı və böyük tamaşaçı rəğbəti qazandı.

Ümumiyyətlə, milli tarixlə bağlı ən gözəl bədii, sənədli filmlər bütün Sovet dövrü ərzində, məhz Heydər Əliyevin hakimiyyəti illərində cəsarət və sevgi ilə yaradılaraq, ekranlara çıxarıldı. Azərbaycan kinosunun ən gözəl nümunələri olan "Babək", "Nəsimi", "Dədə Qorqud", "Ad günü", "İstintaq" və onlarla başqa bədii filmlər yaradılaraq, xalqın istifadəsinə verildi. R.Təhmasib, Ə.İbrahimov, T.Tağızadə, H.Seyidbəyli, R.Ucaqov və b. kimi quruluşçu-rejissorlar bütün ölkə miqyasında məşhurlaşdılar. Belə bir cəhət də əhəmiyyətlidir ki, hətta uşaqlar üçün çəkilən cizgi filmləri də torpaq, yurd sevgisi və milli ruh aşılayırdı.

Heydər Əliyev Azərbaycan kinematoqrafçılarının qurultaylarında iştirak edir, onlarla görüşür, problemlərini öyrənir, yerindəcə həll edir və öz tövsiyələrini verirdi. Həmin tədbirlərdən biri kinematoqrafçıların 1981-ci ildə keçirilən V qurultayı oldu. Belə bir fakt əhəmiyyətlidir ki, ötən qurultaydan keçən müddət ərzində Azərbaycanda 34 bədii, 86 sənədli, elmi-kütləvi, tədris və 15 cizgi filmi çəkilmişdi.

S.Xəlilovun təbirincə desək: "Eyni şəxsin müxtəlif sahələrdə, müxtəlif istiqamətlərdə nümayiş etdirdiyi bilik Onu tanıyanları təəccübləndirir və heyrətləndirir. Lakin Heydər Əliyev fenomeni qarşısında heyrətlənməklə iş bitmir. Onu öyrənmək, şərh etmək və gənc nəsillərə çatdırmaq lazımdır".

M.Qasımlı isə daha sonra yazır: "Heydər Əliyevin həm DTK sədri, həm də respublikaya rəhbərlik etdiyi 14 il ərzində Azərbaycanda dissident olmamışdı. Əslində, başqa cür düşünənlər olsa da, Heydər Əliyev onları dissident hesab etmirdi. Çünki həmin şəxslərə əlverişli yaradıcılıq şəraiti yaradır, problemlərini həll edərək, dissident səviyyəsinə gəlib çıxmağa qoymurdu. Onları bəzən yüksək tribunalardan açıq tənqid də edirdi. Doğrudur, anti-Sovetçi ovunda maraqlı olan bir sıra rəhbər işçilər ötən əsrin 60-70-ci illərində həmin şəxsləri bəzən dissident etmək istəyirdilər. Heydər Əliyev hələ DTK sədri işlərkən Eldar Quliyev "Bir cənub şəhərində" filmini çəkmişdi. Lakin yerli hakimiyyət orqanları filmin ekrana çıxarılmasını qadağan etmişdilər. Mübahisələr qızışmışdı. Belə olduqda, Heydər Əliyev kinostudiyaya gedərək, filmə baxır və onun ekrana çıxarılmasını tövsiyə edir. SSRİ daxili işlər naziri Şelokov filmdə milis işçisinin rüşvət alması epizodunun olmasını əsas gətirərək, onun ölkə ekranlarına çıxarılmasının qadağan edilməsinə çalışırdı. Şelokov bildirirdi ki, Sovet milisində rüşvət yoxdur və milis işçisi rüşvət almır. Sonralar Heydər Əliyev Moskvada ən yüksək Sovet rəhbərləri ilə görüşdə bu məsələnin müzakirəsi zamanı demişdi ki, Şelokovun dünyadan xəbəri yoxdur, əgər milisin aldığı rüşvət bir manatla qurtarsaydı, onda biz cənnətdə yaşayardıq. Nəticədə, bir müddət sonra film geniş ekrana çıxarılaraq, böyük tamaşaçı rəğbəti qazandı.

Ulu Öndər Heydər Əliyev Azərbaycan rəhbəri olarkən, "İstintaq" filmi çəkilmişdir. Filmə baxan rəhbər işçilər Dahi Öndər Heydər Əliyevə deyirlər ki, film onları gözdən salır, rüsvay edir, film əgər SSRİ-nin başqa şəhərlərində göstərilsə, deyiləcək ki, Azərbaycanda korrupsiya və rüşvətxorluq vardır. Onlar filmin ekranlara buraxılmamasını təklif edirdilər. Lakin Heydər Əliyevin məsələyə yanaşması fərqli olur. O, həmin şəxslərə deyir ki, olan şeyi gizlətmək deyil, problemi həll etmək lazımdır. Etirazlara baxmayaraq, film ekranlara çıxarıldı, dövlət mükafatına layiq görüldü, ölkənin, demək olar ki, hər yerində nümayiş etdirildi. Film təkcə sənətkarlıq baxımından yenilik deyil, eyni zamanda, Sovet cəmiyyətinin eybəcərliklərini açmaqda cəsarətli addım idi.

Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən də, bu istiqamətdəki fəaliyyətini daha əzmlə davam etdirirdi. Heydər Əliyevə ölkə rəhbəri vəzifəsini tutmaqda rəqibi kimi baxan məhdud düşüncəli Qorbaçov hakimiyyətə keçdikdən sonra ona mənfi münasibət bəsləyir, əleyhinə müxtəlif əsassız ittihamlar səsləndirirdi. Heydər Əliyev isə həmin uydurmaları qətiyyətlə rədd edirdi. Siyasi büronun iclaslarının birində Heydər Əliyev Qorbaçova və Liqaçova məsləhət görür ki, "İstintaq" filminə baxsınlar. Bu zaman Nazirlər Soveti sədrinin birinci müavini kimi Heydər Əliyevə kinematoqrafiya da tabe idi. İclasdan sonra o, SSRİ Kinematoqrafiya Komitəsinin sədri Yermaşa bu filmin lentinin birinin Qorbaçova və digərinin isə Sov.İKP MK Siyasi Bürosunun üzvü, MK katibi Y.Liqaçova göndərməyi tapşırır. Kino onlara göndərilsə də, vaxtları olmadığı üçün baxmamışdılar. Bəlkə də onlar vaxtı bəhanə gətirirdilər. Heydər Əliyev onların mühafizəçilərinə kinoya baxmağı xatırlatmağı tapşırır. Bazar günü bağda olan Qorbaçov və Liqaçov həmin filmə baxırlar. Onlar Azərbaycanda belə neqativ meyillərə qarşı mübarizənin xeyli əvvəl başlanıldığının və hətta ekranlaşdırıldığının bir daha şahidi olurlar.

"Ad günü" filminə təsadüfən bazar günü baxan Heydər Əliyev Azərbaycan KP MK plenumunda bu filmə baxmağı tövsiyə etdikdən sonra film məşhurlaşdı. Hətta SSRİ-nin İrandakı səfiri Vinoqradov Tehrandan Moskvaya gedərkən, yolüstü Heydər Əliyevlə görüşərkən, Azərbaycan rəhbəri film haqqında söhbət açır. Qonaq evində filmi göstərirlər. Bundan sonra Vinoqradov filmi İranda göstərmək istədiyini bildirir və ona kinonun lenti verilir. Bir müddət sonra film İranda kino-teatrlarda nümayiş etdirilir və uğur qazanır.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin kino mədəniyyətinə qayğısı aşağıdakı istiqamətləri əhatə edirdi:

* Azərbaycan xalqının tarixi kökləri, milli-mənəvi dəyərlərilə bağlı filmlərin çəkilişinə təşəbbüs etmək;
* Milli kino mədəniyyətinin inkişafı qayğısına qalmaq;
* Kino aktyorlarına, yaradıcı heyətinə yardım etmək, mükafatlandırmaq və qayğı ilə əhatə etmək.

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 24 oktyabr


## Uşaqlar üçün robot-pişik hazırlanıb



Rusiyanın Soçi şəhərində keçirilən XIX Beynəlxalq Gənclər və Tələbələr Festivalında gənc auditoriyanı maraqlandırmaq, proqramlaşdırma və robot texnikasına marağı cəlb etmək məqsədilə uşaqları öyrətmək bacarığı olan robot-pişik təqdim edilib.

AZƏRTAC "Hi-News" resursuna istinadən xəbər verir ki, robot gənc istifadəçi tərəfindən proqramlaşdırılan çoxsaylı sensorlarla təchiz olunub. Yeni qurğu səs ötürücülərinə, eləcə də robotun ayrı-ayrı hissələrinin hərəkətini təmin edən çoxlu mexaniki elementlərə malikdir.

Məlumata görə, robota komandaları hazırkı mövcud proqramlaşdırma dilləri və ya proqramlaşdırma haqqında məlumatı olmayanlar üçün işi sadələşdirən xüsusi proqram vasitəsilə vermək mümkündür.

Layihə müəllifi Maksim Mosalskinin sözlərinə görə, robot uşaqlar üçün informatika, riyaziyyat, musiqi və biologiya kimi fənlərin öyrənilməsində yardım məqsədilə yaradılan ilk Belarus texnologiyasıdır. "8-14 yaşlı uşaqlar üçün nəzərdə tutulan qurğuda işi təmin edən çoxlu sensorlar quraşdırılıb. Biz Belarus müəllimləri ilə birlikdə robotun təhsil müəssisələrində tətbiqi üçün tam kursun hazırlanması ilə məşğuluq", - deyə layihə müəllifi bildirib.

## "Titanik"də yazılan məktub rekord məbləğə satılıb



"Titanik"in göyərtəsində yazılan məktublardan biri hərracda rekord məbləğə - 126 min funt-sterlinqə (təxminən 166 min dollar) satılıb. Məktub hərraca 60-80 min funt-sterlinq start qiyməti ilə çıxarılıb. BBC telekanalı xəbər verir ki, əfsanəvi laynerin sərnişinlərinin biri, amerikalı biznesmen Oskar Holverson tərəfindən yazılan məktub öz anasına ünvanlanıb. Həmin məktubun 1912-ci il aprelin 13-də - Belfast tərsanəsində tikilən transatlantik laynerin aysberqlə toqquşmasından bir gün öncə yazıldığı bildirilir. Üzərində dəniz suyunun izləri qalan bu tarixi sənəd Uiltşir qraflığında "Henry Aldridge & Son" hərracında Britaniyalı alıcıya satılıb. Məktubun müəllifi, sahibkar Oskar Holverson "Titanik"də həyat yoldaşı Meri ilə səyahət edirmiş. Oskar qəza nəticəsində həyatını itirsə də, Meri sağ qalıb. Oğulun anasına yazdığı məktub uzun illər sonra ünvanına yetişib.

## "Bığlı Mona Liza" hərracda 743 min dollara satılıb

Parisdəki hərracda "Mono Liza" rəsm əsərinin reproduksiyası böyük marağa səbəb olub. AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, fransız rəssamı Marsel Düşan Leonardo da Vinçinin məşhur rəsm əsərinə karandaşla bığ və saqqal əlavə edib. Əsər hərracda 743 min dollara satılıb.

## Ukraynada milyon dollarla qiymətləndirilən 621 eksponat oğurlanıb

Ukraynanın Lvov İncəsənət Qalereyasının Fondundan 621 eksponat - heykəllər, qədimi kitablar, şəkillər, qiymətli pullar oğurlanıb. AZƏRTAC-ın yerli mətbuata istinadən verdiyi məlumata görə, bu barədə qalereyanın müdiri Taras Voznyak məlumat verib. Onun sözlərinə görə, oğurlanan əşyalar XVI və XX əsrlərin müxtəlif dövrlərini əhatə edir. Qalereya direktoru məsələnin araşdırılması üçün polisə müraciət edib. İtən əşyaların dəyəri milyon dollarla qiymətləndirilir.

## Dünya birinciliyində tarix yazan gənc cüdoçularımız Vətənə qayıdıblar




Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən gənclər arasında dünya birinciliyində böyük uğura imza atmış cüdoçularımız artıq Vətənə qayıdıblar. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançılarımızı Azərbaycan Cüdo Federasiyasının rəsmiləri, ölkəmizin idman ictimaiyyətinin nümayəndələri, jurnalistlər və idmançıların ailə üzvləri qarşılayıblar. Qeyd edək ki, 83 ölkədən 590 idmançının mübarizə apardığı dünya birinciliyində Hidayət Heydərov (73 kq), Zelim Kotsoyev (100 kq) qızıl, Natiq Qurbanlı (55 kq), Kəramət Hüseynov (60 kq) gümüş və Nəzakət Əzizova (52 kq) bürünc medal əldə ediblər.

## Çempionlar Liqasında üçüncü turun ən yaxşı qolu müəyyənləşib




Futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsində III turun ən yaxşı qolu müəyyənləşib. UEFA-nın saytında yer alan xəbərə görə, İtaliyanın "Roma" klubunun futbolçusu Edin Cekonun səfərdə "Çelsi" ilə görüşün 64-cü dəqiqəsində vurduğu qol ən yaxşı seçilib. "Yuventus"un yarımmüdafiəçisi Miralem Pyaniçin Portuqaliyanın "Sportinq" klubu ilə oyunun 29-cu dəqiqəsində vurduğu qol səslərin 24 faizini toplayaraq ikinci olub. Rusiya "Spartak"ının futbolçusu Denis Qulaşkovun İspaniya "Sevilya"sına qarşılaşmanın 67-ci dəqiqəsində vurduğu qol isə 20 faiz səs toplayaraq üçüncü pillədə qərarlaşıb.

## Dünya Taekvando Federasiyasının yeni reytinq cədvəlində ilk onluqda dörd Azərbaycan taekvandoçusu yer alır



Dünya Taekvando Federasiyasının Olimpiya çəkiləri üzrə yeni reytinq cədvəli Azərbaycan idmançıları üçün uğurlu olub. AZƏRTAC xəbər verir ki, oktyabr üçün tərtib olunan siyahıda yığmamızın dörd taekvandoçusu yer alıb. Aktivində 443,16 xalı olan "Rio-2016" Olimpiya Oyunlarının qalibi, dünya və Avropa çempionumuz Radik İsayev 80 kiloqramdan yuxarı çəki dərəcəsində ilk sırada yer alır.

Hesabında 472,36 xal olan dünya çempionumuz Milad Beiqi Harçeqani (80 kq) də reytinqdə birincidir. Altmış səkkiz kiloqram çəki dərəcəsində "Bakı-2015"in və İslamiadanın çempionu 212,20 reytinq xalına malik olan Ayxan Tağızadə isə altıncı pillədədir. Millimizin üzvü avqust reytinqi ilə müqayisədə üç pillə irəliləyib. Qadınlardan ibarət millimizin üzvü Fəridə Əzizova da (67 kq) ilk onluqdadır. Onun aktivində 213,14 reytinq xalı var.

## "Neftçi"nin 3 il yarım gözlədiyi seriya

Topaz Premyer Liqasının IX turu "Neftçi"nin ardıcıl 3-cü qələbəsi ilə əlamətdar olub. SİA-nın məlumatına görə, bunadək "İnter"i 2:0, "Səbail"i 4:0 hesabı ilə məğlub edən Tərlan Əhmədovun yetirmələri Gəncə səfərində "Kəpəz"i də qol buraxmadan üstələyib - 1:0.

"Ağ-qaralar"ın ardıcıl 3 qarşılaşmada 9 xal qazanması isə son illərdə nadir təsadüf olunan hadisədir. Bakılılar belə qələbə seriyasına sonuncu dəfə 2015/16 mövsümündə imza atıb. 2016-cı ilin mayında "Neftçi" AZAL (3:1), "Kəpəz" (2:1) və "İnter"i (4:2) məğlub etmişdi. Lakin həmin vaxt "Neftçi" hər üç matçda qol buraxmışdı. Paytaxt təmsilçisinin ən azı üç qarşılaşmada quru hesabla qalib gəlməsi isə sonuncu dəfə 2014-cü ilin mart və aprel aylarına - təxminən 3 il yarım öncəyə təsadüf edib. Həmin vaxt ardıcıl 5 dəfə qalib gələn "ağ-qaralar" bunların üçündə - "Rəvan", "Xəzər - Lənkəran" və "Bakı"nı qol buraxmadan udmuşdu. Ardıcıl üç görüşdə 1:0 hesabı qeydə alınmışdı.


Baş redaktor:

Bəhruz Quliyev

Baş redaktorun müavinləri:

Valeh Məhərrəmli

Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.

Şəhadətnamə:№ 022492

http://www.ses-news.az

http://www.sesqazeti.az

E-mail: ses@sia.az

Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.

"Azərbaycan" nəşriyyatında çap olunur

Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 5500